YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

# AXH bu gün tədbir keçirir?

## Əli Əliyev: "AXH ilə bağlı heç bir ikitirəlik mövcud deyil"

**Azərbaycan Xalq Hərəkatı bu gün saat 12:00-da ADP qərargahında "AXH Cümhuriyyət yolunda" adlı tədbir keçirəcək. Tədbirlə bağlı ən müxtəlif müzakirələr gedir.**



Belə ehtimallar var ki, tədbir iki hissəyə parçalanan hərəkatda tərəflərdən birinin digərinə əzələ nümayişidir. Bu fikirlərdə haradasa həqiqət payı var. Çünki sabiq daxili işlər naziri İsgəndər Həmidovun liderliyi altında fəaliyyət göstərən AXH Məclisini ADP qərargahında çoxsaylı insanın iştirakı ilə formalaşdırıb. Digər qanadın buna cavabı gözlənilirdi və o da baş tutmaqdadır.

**AXH-nin dönəm sədri, Vətəndaş və İnkişaf Partiyasının rəhbəri Əli Əliyev belə bir tədbirin zəruri olduğunu söylədi:** "Belə bir tədbiri bizim milli təqvimimiz zəruri edir. 28 may bizim milli baxımdan ən böyük bayramımızdır. Bu gün qurucu babalarımız Şərq və İslam dünyasında ilk Cümhuriyyəti qurarak bütün dünyaya bu gün üçün nümunəvi ola biləcək siyasi standart nümayiş etdiriblər. Belə bayram hər millətin tarixində yoxdur. Hətta deyərdim ki, hər millətə bu səviyyəli bayram qismət olmayıb. 28 maya həsr olunmuş tədbir bayram əhvallı tədbir kimi düşünülür. Hazırlıqlarımız pis deyil, iş qrafikə uyğun gedir. Təbii ki, bu tədbir bizim siyasi yaddaşımızla bağlıdır. Qərarımızı verən zaman heç kəsə indekslənmiş mövqeyimiz olmayıb. Bizim meyar Rəsulzadə və silahdaşları, onların keçdiyi həyat yoludur. Bizə görə, əsas hədəf onların millət üçün ayarladığı standartlardır. Bizim qərarlarımız müxalifətdə özünü hesab edən heç kəsə qarşı köklənməyib".

**VİP sədri tədbirin qarşı tərəfdəki AXH-yə güc nümayişi olduğu barədə ehtimallara da toxundu:** "Səhv yanaşmadır. Qismən bu suala cavab verdim. Biz iqtidara qarşı mübarizə aparırıq. AXH ilə bağlı heç bir ikitirəlik mövcud deyil. Biz AXH olaraq öz işimizlə məşğuluq. Zaman ən yaxşı hakimdir. Hər iş öz yerini alacaq, inşallah. Tədbir inanmıram ki, nəyisə dəyişsin. Tədbirə qədər necə var idiksə, elə də davam edəcəyik. Ola bilər ki, baş verənlərdən nigaran olanlar suallarına cavab tapsın. Amma bizim üçün bütün məsələlər çox aydındır. Tədricən cəmiyyətdə də aydınlıq yaranacaq".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

---



## Prezident dini qurumlara maliyyə yardımı ayırdı

**Prezident İlham Əliyev mayın 24-də Azərbaycanda dini qurumlara maliyyə yardımının göstərilməsi haqqında sərəncam imzalayıb.**

AzərTAc xəbər verir ki, sərəncama əsasən, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat ayrılıb.

---



## Müdafiə naziri genişmiqyaslı təlimlərin yekunu ilə bağlı müşavirə keçirdi

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin yekunlarına dair xidməti müşavirə keçirilib. Bu barədə Müdafiə Nazirliyinin saytı məlumat yayıb.**

Məlumatda qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən gecə vaxtı keçirilən genişmiqyaslı təlimlərin nəticələrini təhlil edərək müdafiə naziri qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini bildirib. Nazir təlimlərin əhəmiyyətini qeyd edərək, Ali Baş Komandanın Azərbaycan ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

General-polkovnik Z.Həsənov regiondakı mövcud hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanda baş verən daxili siyasi qarşıdurmanın qoşunların təmas xəttindəki vəziyyətin gərginləşməsinə səbəb ola biləcəyini də xüsusi qeyd edib. Müdafiə naziri qoşunlara sərəncamda olan silahlardan istifadə etməklə düşmənin irimiqyaslı təxribatlarının qarşısını dərhal almağı tapşırıb.

---

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

---



## Araz Əlizadə Ayaz Mütəllibovla düşmənçilik edir?

**Sosial şəbəkələrdəki bəzi iddialara görə, Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibovla Milli Məclisin deputatı, Azərbaycan Sosial-Demokrat Partiyasının sədri Araz Əlizadə arasında münasibətlər pozulub. Hətta bu münasibətlərin hansı səbəbdənsə düşmənçilik səviyyəsinə çatdığı da söylənilir.**

İddialarla bağlı Modern.az-a danışan deputat Araz Əlizadə bildirib ki, Ayaz Mütəllibovla əlaqələri pozulmayıb:

"Bizim münasibətlərimizdə heç bir problem yoxdu, dostluğumuz davam edir. Mən Ayaz Müətəllibovla ölkə ilə bağlı heç nəyi müzakirə etmirəm. Salamatıq, heç bir problem yoxdur, Allaha şükür".

Qeyd edək ki, Ayaz Mütəllibov əvvəllər Azərbaycan Sosial-Demokrat Partiyasının həmsədri olub. Sonradan eks-prezident həmsədrlikdən istefa verərək siyasətdən getdiyini bəyan edib.

---

## Azərbaycanlı ailə Almaniyadan deportasiya olunub

**Almaniyanın Magderburg şəhərinə daimi yaşamaq üçün köçmüş azərbaycanlı ailə deportasiya olunub. "Report"un Avropa bürosunun məlumatına görə, əslən Azərbaycanın Astara rayonundan olan Ukrayna vətəndaşı Əliyev Baloğlan Şirməmməd oğlu həyat yoldaşı və 3 azyaşlı uşaqları ilə birlikdə artıq Berlindən Ukraynaya yola salınıb.**

Onların hansı səbəbdən ölkədən çıxarılması açıqlanmayıb.

Azərbaycanlı ailə qərarla bağlı məhkəməyə şikayət etsə də, miqrasiya orqanları onların ölkədə qalmasına imkan verməyib.

---



## Tereza Mey iyunun 7-də istefa verəcək

**Böyük Britaniyanın baş naziri Tereza Mey hakim Mühafizəkarlar Partiyasının rəhbəri vəzifəsindən istefa verəcəyini açıqlayıb. Baş nazir bu açıqlamanı öz iqamətgahında jurnalistlərə verib.**

O bildirib ki, iyun ayının 7-də partiya rəhbəri və baş nazir vəzifəsindən ayrılacaq.

Qeyd edək ki, T.Mey 2016-cı ildən Böyük Britaniyanın baş naziri postunu tutur.

---



## REAL-ın ziyarət müəmması-partiya Cümhuriyyət tədbiri keçirəcəkmi?

### Natiq Cəfərli: "Biz o abidəni 28 mayda ziyarət edib..."

**REAL Partiyasının 28 May Respublika Günü ilə əlaqədar Cümhuriyyət ziyarəti ətrafında yaranan müəmma davam edir. Partiyanın həmin gün Bakıdakı İstiqlal Abidəsi önünə təyin etdiyi ziyarətə icazə verilməyib.**

Hətta bununla bağlı REAL rəhbəri İlqar Məmmədov Bakı Şəhər Baş Polis İdarəsinə çağırılıb və partiya sədri mayın 23-də orada olub. Görüşdən sonra ziyarət günü mayın 26-na çəkilsə də, buna da izn verilməyib.

**REAL-ın İdarə Heyətinin üzvü Natiq Cəfərli bayram tədbirini mütləq keçirəcəklərini söylədi:** "İllərdir ki, biz o abidəni 28 mayda ziyarət edib, əklil qoyuruq. Bununla bağlı partiyanın sədri İlqar Məmmədov status paylaşdı. Ondan sonra Bakı Şəhər Baş Polis İdarəsindən zəng oldu və İlqar bəyi söhbət etməyə çağırdılar. Biz bir yerdə getdik və təqribən yarım saata yaxın həmin idarədə olduq. Orada ölkəmizdə keçiriləcək Avropa Liqasının final oyunu ilə bağlı müəyyən problemlərin olduğu İlqar bəyin diqqətinə çatdırıldı. Təklif etdilər ki, tədbir gününü dəyişək. Ondan sonra partiyamızın idarə heyəti toplandı və qərara gəldik ki, mayın 26-da ziyarəti gerçəkləşdirək. Bu qərarı elan edəndən sonra yenidən Bakı Şəhər Baş Polis İdarəsindən yenə də İlqar bəylə əlaqə saxlayaraq, mayın 25-dən sonra həmin abidənin önünə insanların toplaşmasının, ümumiyyətlə, mümkünsüzlüyünü ifadə ediblər. İdarə heyətinin yenə də toplantısı olacaq və situasiya dəyərləndiriləndən sonra 28 mayla bağlı yekun qərar veriləcək. Bir şey dəqiqdir ki, Cümhuriyyət Gününü mütləq qeyd edəcəyik. Bu tarixin Azərbaycan üçün çox önəmli olduğunu, şah tarix olduğunu yaxşı bilirik. Ona görə də həmin günlə bağlı bayram tədbirimizin olmasını çox vacib hesab edirik".

❑ **Cavanşir ABBASLI**

# Akif Çovdarov azadlığa gedən yolun astanasında

## “MTN işi” üzrə tutulan 22 nəfərdən həbsdə 10 nəfər qalıb; “Rabitə işi”ndə tutulan 11 nəfər vəzifəli azad olunub

**2015-ci il oktyabrın 17-də gecəyarısı həyata keçirilən xüsusi əməliyyat Milli Təhlükəsizlik Nazirliyinin (MTN) qurum olaraq ləğvi ilə sonuclandı. Qurumda başlanan qəfil yoxlamalar nəticəsində Eldar Mahmudov nazir kreslosunu itirdi, mərkəz, idarə və şöbələrin əksər əməkdaşları istintaqa cəlb olunublar. Əməliyyatdan 2 ay sonra prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqda fərman imzalamaqla, faktiki olaraq, MTN-in qurum olaraq ləğvinə imza atmış oldu. Həmin vaxt artıq MTN-in 5-dən çox generalı da daxil olmaqla, ümumilikdə 22 əməkdaşı həbsə alınmışdı. Bu əməliyyatdan az sonra Rabitə və Yüksək Texnologiyalar Nazirliyində kütləvi həbslər həyata keçirildi. 10-a yaxın vəzifəli şəxs həbs edildi. Məlum oldu ki, 2 nazirliyin vəzifəliləri qarşılıqlı maraq zəminində təmir-tikinti, əməliyyat tədbirləri adı altında milyonlarla büdcə vəsaitinin mənimsəyiblər. Adamların qanunsuz dinlənməsi və izlənməsi, hədələnib pullarının, əmlaklarının əllərindən alınması, rüşvət və başqa əməllərə əl atıblar. Mətbuatda “MTN işi” “Rabitə işi” kimi keçən işlər üzrə artıq məhkəmələrin hökmləri də var, həmin hökmlər üzrə suçlanan vəzifəlilərə 4 ildən 14 ilə qədər həbs cəzası verilib.**

Bu gün hər iki iş üzrə müttəhimlər kürsüsünə çıxarılmış vəzifə daşıyıcılarının bir çoxu artıq azadlıqdadır. Yaxın aylarda MTN generalı Akif Çovdarovun işçisi olmuş, onunla birgə həbs olunaraq məhkum edilmiş Akif Əliyev də azadlığa çıxacaq. “MTN işi”ni izləyənlərin


Akif Çovdarov

bir çoxunda belə fikir formalaşıb ki, yaxın zamanlarda Akif Çovdarovun özü də azadlıqda ola bilər. Bunun üçün müvafiq zəmin yaranıb. Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilən Akif Əliyev kasasiya şikayəti verib. Ali Məhkəmə ona 1 il güzəşt edərək cəzasını 4 ilə endirib. 2015-ci ilin payızında həbs edilən A.Əliyevin bir neçə aydan sonra cəzası başa çatdığı üçün azadlığa çıxacağı gözlənilir. Akif Əliyev MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov və keçmiş şöbə rəisi Orxan Osmanovla birgə məhkum olunmuşdu. Elə həmin məhkəmədə Həbib Həsənovun sədrliyi ilə qapalı keçirilən prosesin son mərhələsində Akif Çovdarovun vəkili Sadiq Rəsulov generalın günahsız olduğunu, ittihamları qəbul etmədiyini və barəsində bəraət hökmünün çıxarılmasını istəmişdi. Məhkəmənin hökmü ilə Akif Çovdarov 12 il müddətinə azadlıqdan məhrum olunub. Bu gün “MTN işi” üzrə həbs olunanlardan 10 nəfəri həbsdədir. Qalanları isə məhkəmələrdə cəzaları azaldılaraq azad olunublar. “Rabitə işi”ndə isə tutulan 11 vəzifə daşıyıcısına 13 ilə qədər həbs cəzası verilmişdi. Bu gün həmin şəxslərdən heç biri həbsdə deyil.

Qeyd edək ki, “MTN işi” çərçivəsində həbs olunanlardan nazirliyin Antiterror Mərkəzinin rəis müavini olmuş polkovnik İlqar Əliyev 2 ay sonra saxlandığı istintaq təcridxanasında asılı vəziyyətdə aşkar olunmuşdu. Akif Çovdarov vəkili vasitəsilə İlqar Əliyevin döyülərək asılmasını açıqlamışdı.

“Akif Çovdarov dünən bizimlə görüşdü. Getdik rəisin yanına. Akif Çovdarov rəisə dedi ki, İlqar Əliyevi döyüb, sonra asıb öldürmüsünüz, o biri təqsirləndirilən şəxs Orxan Osmanovu döyüb, yalandan ifadə almısınız. İlqarı necə döyüb, öldürüb, sonra asıblar, hamısı dəqiqdir. Akif də deyir ki, mən bunlara etiraz olaraq özümü aclıq edib öldürəcəyəm. Eldar Mahmudova qarşı İlqar Əliyevdən ifadə almaq istəyiblər. Orxan Osmanovdan isə Akif Çovdarova qarşı ifadə almaq istəyiblər” - deyə Akif Çovdarovun vəkili onun sözlərini ictimiyyətə çatdırmışdı. Bu gün azadlıqda olanlar sırasında MTN-in Əks-Kəşfiyyat İdarəsinin keçmiş şöbə rəisi, polkovnik Mirəziz Əsgərov da var. Onun cəzası öncə 3 ilə endirilib, daha sonra o, azadlığa buraxılıb.

Generallardan Əməliyyat-Texniki İdarəyə rəhbərlik etmiş Natəvan Mürvətovaya elə birinci instansiya məhkəməsi şərti cəza verib. O, istintaq və məhkəmə dövründə də həbsdə saxlanmayıb. General xanımın rəhbərlik etdiyi idarənin əməkdaşları Fərhad Atayev və Elşad Əzizova da məhkəmə şərti cəza verərək, onları azadlığa buraxıb. MTN-in digər əməkdaşlarından Anar Şirəliyev və Eşqin Əliyevin hər birinə verilən 3 il həbs cəzası isə başa çatdığına görə onlar da xeyli vaxtdır azadlıqdadır. Məhkəmənin hökmü ilə general rütbəsi alınanlardan A.Çovdarovla yanaşı, Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev, Monitorinq Mərkəzinin keçmiş rəhbəri Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi olmuş Sübahir Qurbanov, onun müavini, polkovnik Füzuli Əliyev, işçiləri Natiq Alıyev və Zaur Məmmədov həbsdədir.

“Rabitə işi”ndə məhkum olunan vəzifə daşıyıcılarının bir çoxu Ali Məhkəmənin qərarına əsasən azadlığa çıxıblar. “MTN işi” üzrə həbsdə olan şəxslərin, o cümlədən Akif Çovdarovun işinə hələlik Ali Məhkəmə baxmayıb.

Belə ehtimallar var ki, ilin sonuna qədər “MTN işi” üzrə həbsdə qalan olmayacaq.

❑ **E.HÜSEYNOV, “Yeni Müsavat”**

# Paşinyan oğlunu Qarabağdan Ermənistana apardı

## Ermənistan hakimiyyəti ilə Qarabağ separatçıları arasında savaş dərinləşir; **politoloq:** “Nə əvvəlki hakimiyyət, ya da klan, nə də indiki Paşinyan güruhu bizə sərf etmir”

**Ermənistan hakimiyyəti ilə Qarabağ klanı arasındakı “soyuq savaş” davam edir. Üstəlik, daşnakların və bir dəstə generalın Nikol Paşinyana qarşı çıxması qarşıdurmanın kəskin müstəviyə keçəcəyini labüd edir.**

Bu arada erməni qəzeti “Jamanak” yazıb ki, tanınmamış “DQR” generalitetinin nümayəndələri və Ermənistan oliqarxları Ermənistanın baş naziri Nikol Paşinyanın vəzifəsindən devrilməsi məqsədilə sui-qəsd məsələsini müzakirə edirlər. Qeyd olunur ki, sui-qəsd müzakirəsi “Oqanovski” kimi tanınan “DQR” müdafiə nazirinin keçmiş müavini Samvel Karapetyan tərəfindən “Ermənistanın məşhur oliqarxlarından birinin malikanəsində” təşkil edilib. Qəzetin yazdığına görə, əvvəllər Respublika Partiyasından Ermənistan Milli Məclisinin deputatı olmuş biznesmen Samvel Aleksanyan da yığıncaq iştirakçıları arasında olub. Nəşr vurğulayıb ki, görüş iştirakçıları “Nikol Paşinyan hökumətini devirmək üçün hər şeyi etməyə söz veriblər”. Materialın dərc olunduğu gün Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib ki, respublika hakimiyyətində mümkün sui-qəsd haqqında “naratatlıqlar var”. Bununla belə, o əlavə edib ki, “bu haqda çox açıq” danışmaq olmaz". Jurnalistlərin “Sui-qəsdlə məşğul olanlar xarici, yoxsa daxili qüvvələrdir” sualına cavabında Qriqoryan bildirib ki, “onlar müəyyən dərəcədə bir-birilərinə bağlıdırlar”. (Virtualaz.org)

**Vəziyyətin kritikliyi qarşı duran tərəflərin özlərini də narahat edir. Hökumətin sevgi və həmrəylik qışqırıqları fonunda cəmiyyətdə nifrət və düşmənçilik güclənir. Bunu Daşnaksütyun Partiyasının bürosunun sədri Armen Rüstəmyan partiyanın İrəvanda təşkil etdiyi mitinqdə deyib.** “Hakimiyyət anlamır ki, keçmiş hakimiyyətlərlə bağlı daimi müqayisələr aparmaqla onlara bənzəməyə başlayır. Keçmişdə çoxlu yaxşı şeylər də olub. Özünüzə gəlin, tarix sizdən başlamır. Əldə edilənləri qiymətləndirməsək, hər şeyi itirə bilərik”, - deyə o bildirib. Paşinyanın Qarabağda sui-qəsdçilər olması bəyanatına toxunan Rüstəmyan bunun Ermənistan üçün təhlükəli olduğunu deyib: “Əgər bu bəyanatlar konkret fakt yox, yalnız şübhələrdisə, o zaman bu təhlükəlidir. Bu, Azərbaycan üçün hədiyyə deməkdir. Belə təəssürat yaranır ki, müəyyən şəxslər hakimiyyəti əlcə alsalar da, nə edəcəklərini bilmirlər. Bu mitinqlə hakimiyyətin saxlanılması üçün siyasi və vətəndaş prosesi başlamalıdır. Biz blokada və müharibə şəraitindəyik, amma bu şəraitdə inkişafa məcburuq. Biz ölkəni düşmənə güzəştə getmədən inkişaf etdirməliyik”.

**Ziddiyyətlərin dərinləşməsi fonunda Ermənistanın baş naziri Nikol Paşinyanın oğlu Aşotun xidməti yerinin dəyişdirilməsi də suallar doğurub. Məlumata görə, Aşot Paşinyan Qarabağdan İrəvandakı Nubaraşen rayonunda olan hərbi hissəyə yerləşdirilib. Məsələyə Ermənistan Müdafiə Nazirliyi də münasibət bildirib. Nazirliyin mətbuat katibi Artsrun Ovannisyan facebook səhifəsində yaydığı açıqlamada yenə Azərbaycanı ittiham edərək, dolayısı yolla həm Bakını yayılan xəbərlərin arxasında dayanmaqda ittiham edib, həm də özü də bilmədən yayılan şayiələri təsdiqləyib:** “Mən Azərbaycan stilindəki məqalə başlıqlarını şərh etməyəcəyəm. Ermənistan silahlı qüvvələrinin istənilən hərbçisi müxtəlif vaxtlarda və müxtəlif yerlərdə müxtəlif toplanış, imtahan və hərbi təlimlərdə iştirak edə bilər”.



Qeyd edək ki, Nubaraşendə 2017-ci ilə qədər Ermənistan silahlı qüvvələrinin V korpusu yerləşib. Sonradan bu korpus Rusiya-Ermənistan Birləşmiş Qoşunlarının tərkibinə verilib. İrəvanla Moskva arasındakı razılaşmaya əsasən, vahid ordu birləşməsinin tərkibinə Rusiyanın Ermənistandakı 102-ci hərbi bazası da daxil edilib. Qruplaşmaya Rusiya prezidentinin razılığı ilə Ermənistan dövlət başçısı komandan təyin edir. Hazırda komandan vəzifəsini Tiqran Pərvanyan icra edir. Sülh vaxtı qruplaşma Ermənistan ordusunun Baş Qərargahına, müharibə zamanı isə Rusiya ordusunun Baş Qərargahı və Cənub Hərbi Dairəsinə tabe olur. Qruplaşmanın rəhbərinin müharibə vaxtı kimə tabe olacağı haqqında qərarı isə Rusiya və Ermənistan prezidentləri müəyyənləşdirir. (Axar.az)

**Ermənişünas alim Qafar Çaxmaqlı “Yeni Müsavat”a dedi ki, onun məsələyə fərqli baxışı var:** “Mən buna Qarabağ klanının revanşı deməzdim. Ermənistanda klan deyil, hakimiyyət mübarizəsi gedir. Şübhəsiz ki, hakimiyyətdə kimin olmasının Azərbaycan üçün elə də bir fərqi yoxdur. Əvvəlki prezidentlər də Dağlıq Qarabağla bağlı işğalçı mövqe sərgiləyiblər. Demokrat görünüşlü Paşinyan da daha təhlükəli mövqe nümayiş etdirib. Bundan sonra hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq hesab edirəm ki, bu siyasət dəyişməyəcək. Ermənilərin Qarabağı Azərbaycana qaytarmaq fikirləri yoxdur. O fikrə gətirmək üçün isə bizdən maksimum fəaliyyət tələb olunur. Bu fəaliyyətin birincisinin adı zor tətbiq etməkdir”. **Q.Çaxmaqlı hesab edir ki, Ermənistanda yalnız müharibə yolu ilə həmin fikri dəyişdirmək olar:** “Aprel müharibəsindən sonra erməni cəmiyyətinin bəzi təbəqələri, hətta Ermənistan Milli Konqresində təmsil olunan partiyalar, başda Ter-Petrosyan olmaqla, dedilər ki, Dağlıq Qarabağı əldə saxlamaq üçün ətrafda işğal altındakı torpaqlar geri qaytarılmalıdır. Amma keçən zaman içində vəziyyət dəyişdi, ermənilər toparlandılar və ən müxtəlif siyasi və diplomatik manevrlərlə bu məsələni əvvəlki şəklinə gətirib çıxardılar. Nə əvvəlki hakimiyyət, ya da klan, nə də indiki Paşinyan güruhu bizə sərf etmir. Biz burada gedən prosesləri izləməli, dəyərləndirməli və buna uyğun da hərəkət etməliyik”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

# “İsgəndər Həmidovla əlaqə itib” - AXH rəsmisi

## Tural Abbaslı: “Mən inanmıram ki, İsgəndər Həmidov və orada təmsil olunan digərləri...”

**“Azərbaycan Xalq Hərəkatı İdarə Heyətinin üzvü, sabiq daxili işlər naziri İsgəndər Həmidov hazırda İstanbulda müalicə olunur. Vəziyyəti normaldır, həkimlərin nəzarəti altındadır. Müayinə və müalicəsi davam edir. Lakin İsgəndər Həmidovun şəxsən özü ilə əlaqə saxlamaq mümkün olmayıb”. Bu barədə mayın 24-də “Yeni Müsavat”a açıqlamasında AXH İdarə Heyətinin üzvü, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu məlumat verib. A.Şakiroğlu qeyd etdi ki, hələ İsgəndər Həmidovun ürəyində əməliyyat aparılmayıb.**




**“Bəzi saytlarda xəbər yayılıb ki, əslində İsgəndər Həmidov AXH və şəxsən onun barəsində cinayət işi açılacağını, həbslər olacağını öncədən bilib və buna görə ölkəni tərk edib. Bu xəbərlərə münasibətiniz necədir” sualına AXH rəsmisi belə cavab verdi:** “Bu təbliğat İsgəndər Həmidovu gözdən salmağa hesablanmış, AXH daxilində şübhə toxumu səpmək naminə yayılmaqda olan təxribat xarakterli məlumatlardır. Siyasi sifarişlə yazılan yazılardır. Hamı bilir ki, İsgəndər Həmidovun ürəyində ciddi problemlər var idi. Hələ ötən il ağır vəziyyətdə xəstəxanaya yerləşdirilmiş və orada müalicə almışdı. O da planlamışdı ki, iyun ayında xaricdə əməliyyat olunsun. Sadəcə, ürəyinin qəfil pristupu iyun ayını gözləmədi. İsgəndər bəy də müayinə, müalicə və əməliyyat üçün Türkiyəyə getdi”.

**A.Şakiroğlu onu da məlumat verdi ki, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılan AXH İdarə Heyətinin üzvləri İlyas Abdullayev və Yavər Mikayılova cinayət işi açılıb. Bu şəxslərdən başqa dünənə qədər saxlanılan 60-dan yuxarı AXH üzvü izahat alındıqdan sonra sərbəst buraxılıb:** “Mayın 24-də isə Kənan Manafov adlı fəalımız saxlanılıb. Harada saxlanıldığına dair hələ də məlumatımız yoxdur. AXH İdarə Heyətinin üzvü İlham Murtuzayev və AXH Qusar rayon təşkilatın sədri Didad Əhmədov da mayın 24-də saxlanılıblar. İlyas Abdullayev və Yavər Mikayılovla vəkilləri görüşə bilmir, görüş verməirlər. Vəkili prosesə buraxmırlar deyə onlara hansı maddə və ya maddələrlə cinayət işi açıldığından məlumatsızıq”.

**AXH təmsilçisi onu da dedi ki, Bakı Şəhər İcra Hakimiyyəti 25 may mitinqinə icazə verməyib. AXH-nin İdarə Heyəti isə razılaşdırılmamış aksiya keçirməyi məqsədəuyğun saymayıb:** “Mayın 23-də məsələ ilə bağlı AXH İdarə Heyətinin növbədənkənar toplantısı oldu. Qərara alındı ki, hazırda hərəkata qarşı təzyiq və təqib tətbiq olunduğu bir vaxtda icazəsiz aksiya keçirmək hakimiyyətin əlinə ”kozır” vermək olardı. Bu səbəbdən də Bakı meriyasının əsassız hesab etdiyimiz cavab məktubundan məhkəməyə müraciət etmək qərarlaşdırıldı.

Eyni zamanda qarşıdakı günlərdə yenidən mitinq məsələsini müzakirə etmək və yenidən iyun ayında mitinq etmək üçün Bakı meriyasına müraciət etmək razılaşdırıldı.

Eyni zamanda mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci il dönümünü qeyd etmək üçün saat 15:00-da Novxanıda bayram tədbiri keçirilməsinə dair qərar verildi”.

**Bir müddət öncə İsgəndər Həmidovla aralarında münaqişə yaranan AXH-nin təsisçilərindən biri Tural Abbaslı da son günlər qurum ətrafında baş verənlərə münasibət bildirib. “Yeni Müsavat”a açıqlamasında Tural Abbaslı dedi ki, son günlər həmin kəsimin ətrafında baş verən hadisələri narahatlıqla izləyir:** “İnsanları heç bir əsas olmadan saxlayırlar, izahat alırlar və bəziləri barədə isə ümumiyyətlə məlumat vermirlər. Təbii ki, baş verənlərin izahı kimi müxtəlif mətbu orqanlara sızdırılan məlumatları da oxuyuruq. Ancaq belə bir əsas mənə inandırıcı gəlmir. Mən inanmıram ki, İsgəndər Həmidov və orada təmsil olunan digərləri hansısa qüvvələrlə əlbir olub, onlardan maliyyə əldə edib Bakıda iğtişaşlar və qarşıdurmalar yaratmağa çalışsınlar. Müşahidələrim onu deməyə əsas verir ki, izahatları alınan bəzilərinin hüquqi savadsızlığından istifadə edərək, qurulan işə yardımçı ola biləcək ifadələr alınıb. Bunu həmin şəxslərin verdikləri ifadədən sonra mətbuata açıqlamalarından da aydın görmək mümkündür. Mən həm AXH İdarə Heyətinin üzvü kimi, həm də AĞ Partiyanın başqanı kimi həmin şəxslərə qarşı son günlər atılan addımları qətiyyətlə pisləyir və həbs edilmiş insanları dərhal azad etməyə səsləyirəm. Son zamanlar iqtidarın daxilində yumşalma, islahat, milli barışıq kimi fikirlərin səsləndiyi bir dönəmdə kimsəyə fayda gətirməyəcək bu əməliyyatın məqsədi mənə qaranlıqdır. Belə anlaşılır ki, vəziyyətin gərginləşməsində və xalqla iqtidar, iqtidarla müxalifət arasında sivil münasibətlərin formalaşmamasında maraqlı olan qüvvələr var. Və təəssüf ki, bu qüvvələr kifayət qədər güclüdür. Biz güclü dövlət, firavan xalq görmək istəyiriksə, bu məsələləri təcili şəkildə həll etməliyik”.

**❑ E.SEYİDAĞA, “Yeni Müsavat”**

# Xədicə İsmayılın Ramil Səfərovu hədəfə almasına sərt reaksiyalar



## Fəzail Ağamalı: “Bu cür adamlar, bir sözlə, insan deyillər”

## Əlövsət Allahverdiyev: “Hadisəni biabırçı cinayət kimi qələmə verməyin özü bir rüsvayçılıqdır”

## Elxan Şahinoğlu: “Kimin dəyirmanına su tökürük?”

**Araşdırmaçı jurnalist Xədicə İsmayılın polkovnik-leytenant Ramil Səfərov barədə paylaşdığı status hiddət doğurub. O, 2004-cü ildə Macarıstanda Azərbaycan bayrağını təhqir etdiyi üçün erməni zabiti Qurqen Markaryanı öldürən Ramil Səfərovun biabırçı cinayət törətdiyini bildirib.**

X.İsmayıl sərt şəkildə tənqid olunur, qınanır. Sosial şəbəkələrdə saysız-hesabsız statuslar paylaşılır. Hətta X.İsmayıla etiraz edərək, onu dostluqlarından çıxaran istifadəçilərə də rast gəlirik. Statusa diqqət edəndə jurnalistin erməniləndən fərqlənməyən mövqeyinin şahidi oluruq. Burada əsas diqqətləri isə “xədicəşünaslar” çəkir. Belə ki, aylar öncə Milli Qəhrəman Mübariz İbrahimov haqqında yazdığı statusa görə haqlı olaraq linç edilən Nərmin Şahmarzadə haqqında mövqe bildirənlərin bəziləri indi susurlar.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı “Yeni Müsavat”a açıqlamasında da sərt mövqe sərgilədi:** “Xədicə İsmayılovanın mövqeyi hər kəsə bəllidir. Onun fəaliyyəti anti-Azərbaycan mövqeyini birmənalı şəkildə özündə ifadə edir. Azərbaycan dövlətinin, xalqının, maraqlarının üzərinə getmək onun fəaliyyətinin başlıca prinsipidir. Bu fəaliyyət prinsipinə görə anti-Azərbaycan qüvvələrin içərisində yer alıb. Bunlar Ermənistanın xüsusi xidmət orqanları tərəfindən ələ alınan, erməni diasporasının maliyyəsi hesabına həyatlarını yüksək səviyyədə quran şarlatanlardır. Bu cür adamlar insan deyillər, onlar iblisdirlər. Necə ola bilər ki, Azərbaycanın 20% torpağını işğal edən, Xocalı soyqırımı kimi dəhşətli faciəni törədən ermənilərin yanında yer alaraq, Ramil Səfərovun üzərinə gedəsən? Ramil Səfərov o insandır ki, Cəbrayıldandır, onun nəslindən onlarla insan qırılıb, gözünün qarşısında bu faciələr baş verib, onun bu hadisələr qan yaddaşına yazılıb, uşaq vaxtından psixoloji travma alıb. Əgər biri Azərbaycanın dəyərlərini təhqir edirsə, onun bayrağına həqarətlə yanaşırsa, xalqımızı təhqir edib, onu min cür şərəfsiz sözlərlə aşağılamağa çalışırsa, orada Ramil Səfərov deyil, damarından azərbaycanlı qanı axan istənilən vətənpərvər adam özünü başqa cür apara bilməzdi. Ramil Səfərovu nə üçün bu həddə çatdırıblar? Səbəbləri bilmədən nəticələr üzərində bu cür yaramaz, şərəfsiz sözlər işlətmək faktiki olaraq Xədicə İsmayılovanın mahiyyətini, onun dünyagörüşünü, iç dünyasını nümayiş etdirir. O, psixoloji cəhətdən erməniləşmiş bir insandır. Onun Azərbaycana heç bir bağlılığı yoxdur. O, yaxşı olardı ki, Xədicə adını saxlayıb, familyasını Akopyan etsin. O, Azərbaycan cəmiyyətinin ciddi qınağına məruz qalmalıdır. Xədicə İsmayılova səviyyəsinə uyğun olan sözlərlə hədəfə alınmalıdır”.

**Deputat prezident İlham Əliyevin Ramil Səfərovu əfv etməsindən də söz açdı:** “Ölkə prezidenti hər zaman olduğu kimi, Ramil Səfərovun məsələsində də öz vətəndaşına sahib çıxmaq kimi yüksək keyfiyyətlərini nümayiş etdirdi. Onun Macarıstandan Azərbaycana gətirilməsini və prezidentimizin fərmanı ilə əfv olunmasını hər kəs yaxşı xatırlayır ki, Ermənistanda çox dərin və psixoloji böhran yaratmışdı. Onlara bu baxımdan çox ciddi zərbə vuruldu. Ermənilər sarsıntı içərisində nə edəcəklərini bilmədilər. Bu, İlham Əliyevin vətəndaşına, hərbçilərimizə vermiş olduğu dəyər idi. Bunu Xədicə İsmayılova kimilər başa düşmək gücündə və imkanında deyil”.

**Hüquqşünas Əlövsət Allahverdiyev:** “Aydın məsələ idi ki, Ramil Səfərov cinayət törətmişdi. Onun hərəkətinin cinayət olmadığını heç zaman Azərbaycan tərəfdə kimsə inkar etməyib. Amma burada söhbət tamam başqa məsələdən gedir. Ramil Səfərovu heç bir halda qınamaq olmaz. Onun yaşadığı acıları kim yaşasa, bəlkə də ondan sərt addımlar atardı. Ramil Səfərov erməni vəhşiliyini yaşamış bir adamdır. Digər tərəfdən, burada psixoloji məqamlar var. Məsələ bundadır ki, Ramil Səfərovu o cinayəti törətməyə təhrik ediblər. Azərbaycanın atributlarını təhqir etməklə, ölkəmizə qarşı aqressiv formada fikirlər bildirməklə Ramil Səfərovu belə hadisə törətməyə məcbur ediblər. Psixoloji durumu pozularaq o hadisəni törətmişdi. İndiki məqamda biz tərəfdən hadisəni biabırçı cinayət kimi qələmə verməyin özü bir rüsvayçılıqdır. Bu, düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Erməni sənin körpəni öldürür, insanlarına işgəncə verir, sən isə erməni hərbçisinin öldürülməsini biabırçılıq sanırsan. Bu fikirləri səsləndirəni şiddətlə qınayıram. Belə yollarla düşmənlərin əllərinə imkan verirk ki, məsələni yenidən gündəmə gətirsinlər. Ramil Səfərova verilən ömürlük cəza cinayətin xarakteri ilə uyğunluq təşkil etmirdi. Onun ölkəmizə gətirilib azad edilməsi ciddi uğur idi. Ən azından erməni vəhşiliyinin qurbanı olanların qəlbləri bir az sakitləşdi”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da sosial şəbəkədə məsələyə münasibət bildirib:** “Ramil Səfərovun müzakirəsinin yeridir? Kimin dəyirmanına su tökürük? Ermənilərə elə bu lazımdır ki, biz Ramil Səfərovun keçmiş əməlini müzakirə edək. Ramil Səfərov olaya adekvat reaksiya verərək bayrağımızı və dövlətimizi aşağıladığına görə erməni zabiti cəzalandırıb və etdiyi əmələ görə uzun müddət həbsdə yatıb. O, öz həyatını yaşayır və vətənə xidmətini davam etdirir. Sakit buraxın zabitimizi”.

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

# “Bir adama oxşamaz erməni var, bütün media ondan danışır”

## Ağacan Əbiyev: “Ronaldo deyil, Messi deyil, başımıza çıxarıblar, orada türk futbolçu da var, ondan danışmaq lazımdır”

**Dünya siyasətində məşhur “ingilis barmağı” ifadəsi bu günlərdə Azərbaycan üçün olduqca aktualdır. Britaniya mediasının bu həşirinin səbəbi aydın deyil: yol uzaqdır, Mxitaryana təhlükə var, təyyarələr London havasını korlayır, hotellər bahadır, biletlərin yarısı qaytarılıb və sair...**

İngilislərə ilk və hələ ki son dəfə dünya çempionluğunu nəsib etmiş azərbaycanlı hakim Tofiq Bəhramovun vətənində iki ingilisdən birinin Avroliqanın kubokunu başı üzərinə qaldırmaq şansı yaranmışkən antitəbliğat kampaniyası qurublar.

1994-cü ildən Bakı neftini daşıyan ingilis şirkəti bp üçün heç bir təhlükə olmayan Azərbaycanda niyəsə görə indi vahiməli bir mühit var. Axı ingilislər bizdən niyə üz döndərir?

**Deputat, Azərbaycan Boks Federasiyasının vitse-prezidenti, beynəlxalq dərəcəli hakim Ağacan Əbiyev “Yeni Müsavat”a bildirdi ki, Britaniyanın hansısa bir qəzetinin yazdığı cəfəngiyyata əhəmiyyət verməli deyilik.**

**Onun sözlərinə görə, İngiltərədə yalnız bir qəzet Azərbaycandakı yarışla bağlı boş-boş məlumatlar yayır.** “O qəzet nədir ki, Azərbaycana qarşı qərəzli olsun? Bütün bunlar boş-boş söhbətlərdir. Onların hansısa qəzetinin yazdığını bütün Britaniyanın bizə qarşı kampaniyası kimi təqdim etmək olmaz. Hər eləsinə cavab versək, onda gərək işimizi bir kənara qoyaq, bunlarla məşğul olaq” – deyə, A.Əbiyev qeyd etdi.



**Deputat bildirdi ki, idmanı siyasətə qarışdırmaq olmaz:** “Sadəcə, yarış ətrafında oyun düzəldirlər. Yarış qalıb kənarda, xırda işləri şişirdirik. Bizim mətbuat da gərək onlara fikir verməsin. Sonra özümüz şişirtdiyimiz o kiçik məsələdən qorxmağa başlayırıq. Mən 1953-cü ildən idmanla məşğulam, çempion olmuşam. İdmandan vətənpərvərliyin təbliği üçün istifadə etmək lazımdır. Bəziləri hərdən bundan sui-istifadə edirlər”.

**A.Əbiyevin fikrincə, Azərbaycan həmişə olduğu kimi, bu yarışı da yüksək səviyyədə təşkil edəcək:** “Belə kampaniyalara fikir verməyək. Hər danışılan qeybətə əhəmiyyət verməli deyilik. Kimsə hasarın tinində nəsə danışır, biz də münasibət bildiririk. Mən 15 il döyüşmüşəm, idman yarışlarına ermənilər də gəlib, onlara qalib gəlmişik. Bu günə kimi də hansısa təxribat yaşanmayıb. İdman siyasətə gərək qarışmasın, qarışanda yarış mənasını itirir, siyasətə çevrilir. Bunu bir idmançı kimi deyirəm.

Biz Bakıda boks üzrə dünya çempionatı keçirmişdik, Ermənistan yığması üç idmançı ilə gəlmişdi. Heç kəs bilmədi ki, onlar gəliblər. Onlar kim idi ki, xüsusi qabardardıq? İndi “Arsenal”da o qədər oyunçu var, bir bu ermənidən danışırıq. Elə bil ki, o komanda yoxdur, tək erməni gəlib. Pele gəlsə ondan danışaq. Biz özümüzə yüksək qiymət verməliyik. Çünki ermənilərdən hər sahədə üstünük. Erməni idmançılar bura gəliblər, qalib gəlmişik, hay-küy də olmayıb. Bu cür söhbətləri ortaya atırlar ki, oyun kənarda qalsın. Sonra istəyirlər ki, müzakirə genişlənsin, reaksiya verək və söhbət uzansın. Biz reaksiya verməməliyik".

**Federasiya rəsmisi yada saldı ki, İslam Həmrəyliyi Oyunları, Avropa Oyunları ərəfəsində də kimlərsə uğursuz kampaniyalar təşkil eləmişdilər:** "Özləri deyib, özləri eşitdilər. Nə oldu ki? Biz yarışları yüksək səviyyədə keçirdik, qaliblər medallarını qazandılar, şəhərin qonaqları rahat, sərbəst şəkildə gəzdilər. Onlar elə bilirlər ki, belə söhbətlər reytinqi qaldırır. Bu məsələləri böyütmək lazım deyil. Bir söhbəti ortaya atırlar, mal dərisi kimi dartırlar. Bir adamaoxşamaz erməni var, bütün media ondan danışır. Kimdir ki o? Biz ondan niyə danışmalıyıq? Ronaldo deyil, Messi deyil, başımıza çıxarıblar. Orada türk futbolçu da var. Ondan danışmaq, öz idmanımızdakı uğurlardan söz açmaq lazımdır. Bizim işimiz isə yüksək səviyyədə, dövlətin adına-sanına uyğun yarış təşkil etməkdir".

**“Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin olunub” - vitse-spiker Bahar Muradova Modern.az-a belə deyib. Vitse - spiker final oyunu barədə əlavə şərhə ehtiyac duymur:** “Bakı futbol həyəcanını və sevincini yaşamaq istəyən həm oyunçuları, həm də qonaqları qarşılamağa tam hazırdır”.

Deputat Sevinc Fətəliyeva isə hesab edir ki, manipulyasiyalar nəticəsiz qalacaq və ölkəmiz növbəti dəfə idman tarixinə mükəmməlliyi ilə yeni səhifə əlavə edəcək. O, “Amnesty İnternational” təşkilatının final barədə fikirlərinə münasibət bildirərkən vurğulayıb ki, beynəlxalq idman yarışının siyasiləşdirilməsi anti-Azərbaycan qüvvələrin qərəzinin nümunəsidir.

**Sitat:** “Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin heç birində təhlükə yaradacaq hallar baş verməyib və ümumiyyətlə, bu cür məsələ müzakirə mövzusu ola da bilməz. Mxitaryan son dövrlər heç bir maraqlı performans və peşəkar oyun təqdim etmir, karyerası bitməkdə olan bir idmançının məqsədi reytinq qazanmaq istəyi və piarının təşkilidir”.

“Bakı Avropa Liqasının final matçına hazırdır. Oyun üçün paytaxta 30 mindən çox əcnəbi azarkeş gələcək. Bu, bizim üçün böyük imtahandır”.

Bunları **gənclər və idman naziri Azad Rəhimov** Bakıda keçiriləcək UEFA Avropa Liqasının final oyunu barədə “Anadolu” agentliyinə açıqlamasında deyib.

**Nazir bildirib ki, UEFA rəsmiləri matçın baş tutacağı Bakı Olimpiya Stadionunun təftiş ediblər və 5 ballıq şkala ilə 4,5 bal qiymət veriblər:**

“Bu, hər bir metri planlı şəkildə inşa edilən stadiondur. Bütün sistemlər problemsiz işləyir. Azarkeşlərin hava limanından bura gəlməsi üçün hər şey düşünülüb.

Bunadək Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və “Formula 1" kimi nəhəng yarışlara ev sahibliyi etsək də, belə səviyyədə futbol tədbirini ilk dəfə təşkil edəcəyik. Azarkeşlər bu matçı səbirsizliklə gözləyirlər. Gərgin matç olacaq”.

Qeyd edək ki, mayın 29-da keçiriləcək finalda İngiltərənin “Arsenal” və “Çelsi” komandaları qarşılaşacaq.

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

# AFFA-dan ingilis azarkeşlərin biletdən imtinasına reaksiya

## Qalan 4 min bilet Bakıda satışa çıxarılıb, “Ayntraxt” azarkeşlərinin qaytardığı biletlərə də aydınlıq gətiriləcək; “Arsenal” və “Real” azarkeşləri ötən il də biletlərdən imtina edibmiş...

**“Cəmiyyətə düzgün şəkildə bu məsələ izah edilməyib. Əslində ingilis azarkeşləri finala aldıqları biletlərdən imtina etməyiblər. Sadəcə, UEFA tərəfindən hər kluba 6 min bilet ayrılmışdı. ”Arsenal" onlardan 4500-nü öz azarkeşlərinə satıb, “Çelsi” 3500 bilet satıb. Yerdə qalan 4 min bilet satılmayıb və azərbaycanlı azarkeşlərin bu oyunla bağlı çoxsaylı sorğusunu nəzərə alaraq, həmin biletlər Azərbaycanda satışa çıxarılıb. Bu da azərbaycanlı azarkeşlər üçün bir fürsətdir".**

Bu sözləri “Yeni Müsavat”a **AFFA-nın mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Firuz Abdulla** ingilis azarkeşlərinin aldıqları biletlərin yarısından imtina etdikləri barədə Britaniya mətbuatının yaydığı xəbərə münasibət bildirərkən dedi.

Onun sözlərinə görə, həmin biletlər satılır və ümumilikdə 52 mindən artıq bilet alınıb: “Bakı Olimpiya Stadionunun 63 min nəfərlik tutumu var. UEFA oturacaqlarla bağlı müəyyən konstruksiya işləri aparıb.

Bu qurumun ingilislərə ayırdığı 12 min kvotadan 8 mini satılıbsa, bu, o demək deyil ki, qalanından imtina ediblər. Ola bilsin ki, başqa ölkələrdən da bilet alanlar var.

Çünki ilkin mərhələdə 100-ə yaxın ölkədə bilet satışa çıxarılmışdı. Biz ümid edirik ki, son bir neçə gündə 11 min bilet də satılacaq və stadion 63 min nəfərlə dolacaq".

AFFA
Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

**F.Abdulla yarımfinalda “Çelsi”yə uduzan alman klubu “Ayntraxt”ın azarkeşlərinin tələsərək öncədən finala aldıqları biletləri Azərbaycana bağışlaması haqda bildirdi ki, bu məlumatı dəqiqləşdirirlər:**

“İctimaiyyətə rəsmi məlumat verəcəyik. Amma bu informasiyada həqiqət yükü daha çoxdur, ətraflı aydınlıq gətirəcəyik”.

**AFFA sözçüsü “Skybox”un biletləri 20-25 minə satışa çıxarması haqda sosial şəbəkələrdə yayılan xəbərləri də uydurma adlandırdı:** “Əslində bu cür böyük turnirlərdə, belə oyunlarda ”qara bazar" olmur. Yalan məlumatlardır".

İngiltərənin “The Times” nəşrinin yaydığı məlumata görə, klublar onlara ayırılan biletlərin hamısını sata bilməyiblər.

**REAL Partiyasının İdarə Heyətinin üzvü, iqtisadçı Natiq Cəfərli yazıb ki, UEFA finalının Bakıya salınması Azərbaycan hökumətinin bu günə qədər keçirdiyi idman tədbirləri arasında ən doğru verilmiş qərardır:**

“Final oyununa əlavə vəsait xərclənməyəcək, cəmi 1 gün keçiriləcək, dünyanın diqqəti burada olacaq.

Final oyununa dünyada təqribən 1 milyard insanın baxması gözlənilir, yəni piar nəzərindən ən doğru addımdır".

**“Arsenal”ın sabiq baş məşqçisi Arsen Venger hesab edir ki, finalın Bakıda keçirilməsi komandalara çətinlik yaratmayacaq.**

**Fransız mütəxəssisin fikrincə, “Arsenal” və “Çelsi” ideal şəraitdə yaşayırlar:** “Onların futbolçuları səfərlərə özəl təyyarə ilə uçurlar, biznes-klass kreslolarında otururlar”.

**Venger deyib ki, finalın Bakıda olması yalnız azarkeşlərə təsir göstərəcək:** “Onlar üçün bu, kiçik kabus kimi olacaq”.

**“Çelsi”nin qapıçısı Kepa Arrisabalaqa isə deyib ki, Bakıda son maneəni dəf etməliyik:** “Düşünürəm ki, futbolçular və azarkeşlər Bakı finalından zövq alacaqlar.

Derbi və finalda hər şey baş verə bilər. Qalib olmaq üçün mübarizə aparacağıq. Kuboku götürsək, bu, “Çelsi”nin ən yaxşı qələbəsi olacaq".

Xatırladaq ki, mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının “Arsenal” - “Çelsi” qarşılaşması saat 23:00-da başlayacaq.

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

## Sarkisyan, "uuuuu, Armeniya", Şevçenkonun etirazı, "qara dəlik" söhbəti...



**Söz Ermənistanın prezidenti Armen Sarkisyana veriləndə bizdən bir cərgə arxadakı adamdan qəribə bir çığırtı çıxdı, sırf etika naminə səslənən seyrək çəpik sədalarının içində "uuuuuu, Armeniya" ulartısı zalın hər tərəfində eşidildi və hamı kimi biz də dönüb baxdıq ki, görək bu adam kimdir.**

Yersiz bağırtıydı. Belə hayqırığı idman yarışlarında-filanda, idmançını ruhlandırmaq üçün edərlər. İndi burada nə olmuşdu ki? 16-cı Avrasiya mediaforumu çərçivəsində Ermənistanın düz-əməlli səlahiyyəti olmayan qoyulqa prezidentinə söz vermişdilər.

Biz təbii ki, bu gülünc hərəkətə ironik reaksiya göstərdik, öz aramızda "görməmişin oğlu oldu" məsəlini xatırladıq. Təxminən 20 saniyədən sonra məlum oldu ki, həmin o "uuuuuu, Armeniya" deyə ulayan adam yerini dəyişib. Görünür, bizi tanıyıb qorxmuş və aradan çıxmışdı.

Bu arada isə Ermənistan prezidenti tribunada ölkələrarası dostluğa, regional əməkdaşlığın iqtisadi faydalarına, beynəlxalq layihələrə dair olduqca mənasız bir çıxış edirdi. Özü təcrübəli diplomat olsa da, rus və ingilis dillərində sərbəst çıxış etsə də, aydınca göründü ki, Sarkisyan öz ölkəsində dövlət işlərindən xeyli kənarda tutulduğu üçün eləcə mövzu ətrafında danışır.

Ancaq belə göründü ki, Ermənistan prezidenti maraqlı və məzmunlu danışsaydı da, heç bir qüvvə rusiyalı məşhur jurnalist Maksim Şevçenkonu zalda saxlaya bilməyəcəkdi. Sarkisyana söz verilən kimi, ön cərgələrdə oturmuş Maksim nümayişkaranə şəkildə ayağa qalxdı və başını bulaya-bulaya foyeyə çıxdı. Az sonra biz də ona qoşulduq və bir masa ətrafında dayanaraq söhbətə başladıq.

Öncə Maksim Şevçenkodan zaldan Sarkisyana görə çıxıb-çıxmadığını soruşduq. Jurnalist həmkarımız dedi ki, bunların bu cür riyakar çıxışlarına qulaq asmağa təhəmmül edə bilmir. Çünki daima saxta danışırlar və mövzu nə olur-olsun, Ermənistanı ortaya soxurlar. Maksim fikrini belə açdı: "Məsələn, tutaq ki, astrofiziklər yığışıb kosmik fəzada qara dəlikdən danışırlar. Erməni astrofizik mütləq məsələyə Ermənistanın prizmasından yanaşacaq, qara dəliyin Ermənistana xüsusi təsirini qabardacaq. Xasiyyətləri budur".

Bəs belə maksimalist və eqoist tərəflə Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar effekt verə bilərmi?

**Maksim Şevçenko suala konkret cavab verdi:** "Heç bir danışıq bu münaqişəni həll etməyəcək. Siz torpaqlarınızı Ermənistanın işğalından yalnız müharibə yolu ilə qurtara biləcəksiniz. Birmənalı".

Bəs Rusiya faktoru var axı... o necə olsun?

**Maksim bu suala belə cavab verdi:** "Rusiya faktorundan çox Rusiyada yaşayan erməni milyarderlər faktoruna baxmaq lazımdır. Onlar Ermənistanın bütün siyasi addımlarını, avantüralarını yüksək səviyyədə dəstəkləyir və maliyyələşdirirlər".

Əslində azərbaycanlıların dostu kimi tanınan jurnalist söz arasında məşhur azərbaycanlı alim Heydər Camalın Almatıdakı məzarını ziyarət etdiyini bildirdi, məzarlığın ünvanını bizə dedi, mərhum alimin oğlu Orxan Camalla çox yaxın dost olduğunu bildirdi və hazırda Rusiyada başı cəncəldə olan jurnalist Fuad Abbasovdan danışdı: "Fuada görə çox narahatam. O, prinsipial, döyüşkən adamdır və əsl azərbaycanlıdır".

Maksim Şevçenkoya Ukraynada hakimiyyətə gəlmiş Vladimir Zelenski haqqında da sual verdik. O, Zelenskiyə rəğbət bəslədiyini, onun çox xarizmatik, pozitiv, intellektual, təmiz adam olduğunu bildirdi.

Bəs bütün bu üstün keyfiyyətlər onun yaxşı prezident olmasına səbəb olacaqmı?

Jurnalist həmkarımız buna ümid etdiyini, Zelenskinin, prinsipcə, bütün postsovet məkanı ölkələri üçün nümunə olduğunu, yeni bir Ukrayna qurmağa çalışacağını söylədi.

Bizimlə söhbət etdiyi əsnada bir neçə çəkiliş qrupu Şevçenkoya yaxınlaşaraq müsahibə götürmək istədiklərini bildirdilər. Maksim nəzakətli şəkildə onlara azərbaycanlı dostlarla söhbət etdiyini, bir qədər gözləmələrini tövsiyə etdi və ondan sonra Suriya, ABŞ, İran, Rusiya, Liviya mövzusunda şərhlər verdi.

O, sözünün sonunda bildirdi ki, əslində ABŞ hazırda Ermənistanla ona görə yaxınlaşmağa, ələqələr qurmağa çalışır ki, ondan platsdarm kimi istifadə edərək İranı vura bilsin. Şevçenkonun bu xüsusdakı proqnozu isə pessimist oldu: "Regionda müharibə olacaq".

❑ **Xalid KAZIMLI,**
**"Yeni Müsavat"**

# "Erməni ordusu döyüşlərə dözməyib qaçacaq" - azərbaycanlı general

## Yaşar Aydəmirov: "Artıq məqam yetişib, onlara deməliyik ki, torpaqlarımızda bu qədər yaşadınız, bəsdir!.."

**Ermənistanın qeyri-konstruktiv davranışları, danışıqları pozmaq istiqamətində atdığı addımlar gərginliyi tətikləməkdədir. Artıq nəinki Azərbaycanda, hətta ölkə xaricində də şübhə etmirlər ki, Qarabağ məsələsinin dinc yolla ədalətli həlli mümkünsüzdür.**

*Son zamanlar müharibə gözləntiləri ilə bağlı açıqlamalar nəzərəçarpacaq dərəcədə artıb. Hətta rusiyalı məşhur jurnalist Maksim Şevçenko da Qazaxıstanda Musavat.com-un redaktoru ilə görüşü zamanı "Heç bir danışıq bu münaqişəni həll etməyəcək. Siz torpaqlarınızı Ermənistanın işğalından yalnız müharibə yolu ilə qurtara biləcəksiniz. Birmənalı", - deyə bildirib. Ehtiyatda olan zabit, general-leytenant Yaşar Aydəmirov mövcud durumla bağlı "Yeni Müsavat"ın suallarını cavablandırdı.*



***- Cənab general, müharibə xəbərdarlıqları və gözləntiləri kifayət qədər artıb. Bu mənada Qarabağda müharibənin başlanmasını zamanın diktəsi saymaq olarmı?***

- Sözsüz ki, Qarabağda müharibə yetişib və bu, an məsələsidir. Bu barədə danışan ekspertlər də Azərbaycan ordusunun döyüş hazırlığı səviyyəsini dərk edirlər. Həm də onlar görürlər ki, Azərbaycan ordusu intensiv, irimiqyaslı hərbi təlimlər keçirir, müasir silahlardan istifadə edir. Onu da başa düşürlər ki, bu təlimlər ucuz başa gəlmir. Bu təlimləri təhlil etsək, görürük ki, bunlar müxtəlif şəraitlərdə həyata keçirilir. Gecə şəraitində də, çöl-səhra şəraitində də, yağışlı, qarlı havada da təlimlər keçirilir və yüksək nailiyyətlər əldə olunur. Azərbaycan ordusu savaşa çoxdan hazırdır və Dağlıq Qarabağı, ətraf əraziləri işğaldan azad etməyə qadirdir.

***- Bəs düşmən ordusunun durumu barədə nə deyə bilərsiniz?***

- Sözsüz ki, Ermənistan ordusunun, Dağlıq Qarabağdakı qoşun birləşmələrinin uzun müddətli müharibə aparması üçün nə döyüş sursatı, nə də gücü var. Bir-iki istiqamətdən endirilən kəskin zərbələrdən sonra erməni ordusu təslim olacaq, yaxud qaçacaq. Ermənistanı himayə edən qüvvələr də yaxşı bilir ki, növbəti hərbi əməliyyatların başlanması işğalçı ölkəni hansı fəlakətlərlə baş-başa qoyacaq. Bunlar gəlişigözəl sözlər deyil, real qiymətləndirmədir. Ona görə də ayrı-ayrı analitiklər reallığı ifadə etməyə başlayıblar. Bunun əksini deyən ekspertlər də qalmayıb. Bizim əleyhimizə çalışan ekspertlər də anlayır ki, Azərbaycan ordusu məsələni qısa bir zamanda həll edə bilər.

***- Polkovnik Şair Ramaldanov da hesab edir ki, müharibə başlasa, Azərbaycanın uzun müddət savaş aparmasına imkan verilməyəcək, ona görə də torpaqları qısa müddətdə azad etmək lazımdır. Son hərbi təlimlərin fonunda deyə bilərikmi ki, Azərbaycan ildırımsürətli hərbi əməliyyatlara hazırlaşır?***

- Şübhəsiz ki, hər bir təlimin məqsədi döyüşə hazırlıqdır. Ən böyük təlimlər də külli miqdarda döyüş texnikasının cəlb edilməsi ilə həyata keçirilir. Bu, hazırlığın ən yüksək zirvəsidir. Mən demirəm ki, döyüşlər üçün 3-5 günlük icazə verilsin. Sadəcə, deməsinlər ki, iki bölmənin döyüş aparmasına icazə verirlk. Həm bölmələrin sayını bir az artırsınlar, həm də 2-3 gün əlavə etsinlər, onda görərlər nəticəni. 3-4 briqadanın iştirakı ilə 5-6 gün kifayət edər. Məsələ həll olunacaq. Burada başqa variant yoxdur. O halda erməni ordusu döyüşlərə dözməyəcək, qaçacaq. Çünki Azərbaycan tərəf külli miqdarda döyüş texnikası, silah-sursatdan, müxtəlif qoşun növlərindən istifadə edəcək. Bizdə kifayət qədər dəqiq silahlar var. Döyüş bölmələrimizin demək olar ki, 100 faizi MAXE əməkdaşları, peşəkar zabitlərdir. Bunu analitiklər də bilirlər və deyirlər belə olan təqdirdə niyə oturmusunuz? Amma təbii ki, məsələnin siyasi tərəfi var, bunu da hər kəs bilməlidir.

***- Cənab general, Azərbaycan ordusu hərbi təlimlər keçirməklə yanaşı, Türkiyə ilə birgə təlimlər də keçirildi. Bu mənada Azərbaycan-Türkiyə hərbi birliklərinin Qarabağda birgə hərbi əməliyyatlar aparması reallaşa bilərmi?***

- Mən bunun reallaşacağını demək istəmirəm. Sadəcə, Türkiyə Silahlı Qüvvələrindəki müxtəlif tip silahlar, aviasiya, hərbi texnika var ki, bizdəkilərdən bir az fərqlənir. Onların uzlaşdırılması, təcrübə mübadiləsi naminə birgə təlimlər çox vacibdir. Həm də o tipli silahlar alınanda problem yaranmasın deyə, hərbçilərimizin öyrənməsi çox faydalıdır.

***- Azərbaycan işğal altındakı ərazilərini azad etmək üçün hərbi əməliyyatlara başlayarsa, o halda digər ərazilərdən, sərhədboyu mövqelərimizdən düşmən ölkəyə zərbə endirilməlidirmi?***

- Hərbçi kimi deyirəm ki, müharibə başlasa, Qərbi Azərbaycanın bütün nöqtələrinə zərbə endirilməlidir. Ancaq məsələnin siyasi tərəfini deyə bilmərəm. Düzdür, biz Ermənistanın ərazi bütövlüyünü tanımamışıq, onlar da tanımırlar. Ancaq o torpaqlar hamısı bizimkidir. 1918-ci ildə İrəvan şəhəri də onlara paytaxt kimi məcburən verilib. Artıq məqam yetişib, ermənilərə deməliyik ki, bizim torpaqlarımızda bu qədər yaşadınız, bəsdir! Mən bir məsələyə əminəm ki, Qarabağı işğaldan etməyin ən rahat üsulunu hərbçilər bilir. Problemi daha da çətinə salan diplomatlar və siyasətçilərdir. Sarsıdıcı bir zərbədən sonra ermənilər qaça-qaça danışıqlara gələcəklər. Özləri yalvaracaqlar.

***- Cənab general, son günlər Paşinyana qarşı ciddi müqavimət hərəkatı başlayıb. Qarabağ klanı ilə Ermənistan rəhbərliyi arasında gərginliyin davamını gözləmək sərfəlidir, yoxsa fürsətdən istifadə edib düşmənə zərbə endirmək?***

- Vallah, ermənilərdə birlik olsa da, hamısı eyni sözü danışsa da, Azərbaycan ordusu üçün torpaqlarımızı işğaldan azad etmək problem deyil. "Düşmən zəif də görünsə, saymazyanalıq etmə, güclü də görünsə - qorxma". Bunu eramızdan əvvəl yaşamış Çin sərkərdəsi deyib. Əsas məqsəd düşməndə çaşqınlıq yaratmaq olmalıdır. Tarixən belə olub.

***- Sizin açıqlamalarınızdan belə qənaətə gəlmək olar ki, əgər xarici işlər naziri olsaydınız, Vaşinqtonda təşkil olunacaq danışıqlardan imtina edərdiniz, eləmi?***

- Sözsüz ki. Mən danışıqlara qəti şəkildə inanmıram. Düşmənə bir dənə yaxşı zərbə endirmək lazımdır, ondan sonra özləri yalvaracaqlar. Aprel döyüşlərində iki taborun iki istiqamətdə həyata keçirdiyi əks həmləsinin qarşılığında onlar böyük dövlətlərin rəhbərlərinə yalvardılarsa, deməli, müddət və şəxsi heyət artırılsa, işğalçılar diz çökəcəklər.

***- Gələn həftə işğal olunmuş Azərbaycan ərazilərində Qarabağ separatçılarının təşkilatçılığı ilə futbol yarışı keçiriləcək. Həmin yarışa reaksiyamız necə olmalıdır?***

- Sözsüz ki, onlar müxtəlif oyunlar keçirməklə diqqəti yayındırmaq, özlərini beynəlxalq aləmə sırımaq istəyirlər. Amma təbii ki, buna lazımi reaksiya vermək gərəkdir. Heç Şuşadakı tədbirlərə də imkan vermək lazım deyildi. Mən bir zabit kimi sərt münasibətin tərəfdarıyam. Sözsüz ki, təhdidlər çox olacaqdı. Amma olsun...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

# Məhkəmə qəddar qətldə adı keçən dünya çempionunu həbsdə saxladı

## Vəkil müvəkkilinə verilən "cinayətkar birlik tərəfindən adam öldürmə" ittihamını əsassız sayır





**Bakı Apelyasiya Məhkəməsi kikboksinq üzrə dünya çempionu Zaur Yusifovu həbsdə saxlayıb. Bu haqda "Yeni Müsavat"a Zaur Yusifovun vəkili Ceyhun Yusifov məlumat verib. Vəkil deyib ki, müvəkkilinin barəsində Binəqədi Rayon Məhkəməsində seçilmiş həbs-qətimkan tədbirinin digər qətimkan tədbiri ilə əvəzlənməsi üçün apelyasiya şikayəti veriblər: "Zaur Yusifov barəsində Binəqədi Rayon Prokurorluğunda əsassız olaraq Cinayət Məcəlləsinin 120.2.1(bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə), 120.2.2(xuliqanlıq niyyəti ilə adam öldürmə) maddələri ilə cinayət işi başlanıb. Təqsirləndirilən Zaur Yusifovun barəsindəki həbs-qətimkan tədbirinin dəyişdirilməsi üçün Bakı Apelyasiya Məhkəməsinə müraciət etdik. Məhkəmə şikayəti təmin etmədi".**

Vəkili deyib ki, müvəkkilinin əsassız saxlanılması ilə bağlı vəsatəti təmin olunub: "Məhkəmə qərar qəbul edərək həmin halların araşdırılması üçün Binəqədi Rayon Prokurorluğuna göndərdi".

Ceyhun Yusifov deyir ki, müvəkkilini 5 gün müddətində qanunsuz və əsassız olaraq saxlayıblar. Düşünür ki, bu qərar gələcəkdə baş verə biləcək qanunsuz halların qarşısının alınmasında president ola bilər.

Zaur Yusifovun adı "Emin 444" ləqəbi ilə tanınan Masallı sakini, 1988-ci il təvəllüdlü Emin Səfərovun qətlində sifarişçi və iştirakçı kimi keçir. Emin Səfərov Yusifovların evlərinin yaxınlığında xüsusi qəddarlıqla öldürülüb. Məhkəmə tibb ekspertləri onun cansız bədəni üzərində 78 bıçaq xəsarəti sayıblar. Həmin xəsarətlərin mütləq əksəriyyəti həyatla bir araya sığmayan bıçaq izləri olub. Emin Səfərovun qətlində bir neçə bıçaqdan istifadə edilməsi haqda ilkin məlumatlar onu deməyə əsas verib ki, qətl 1 deyil, bir neçə nəfər tərəfindən törədilib. Bu amansızlığın səbəbi haqda da mərhumun yaxınları ilginc açıqlamalar veriblər. Deyiblər ki, Emin Səfərov qətlə yetirilməzdən əvvəl qonşuları, kikboks üzrə dünya çempionu Zaur Yusifovla mübahisə edib. Ona sələmə pul verməsini, digər bu sayaq əməllərini irad tutub. Bu zəmində tərəflər arasında mübahisə olub. Həmin mübahisədən sonra Zaur Yusifov Emin Səfərovun qətlini planlaşdırıb, atası Əli Yusifov, qardaşı Zamin Yusifov, bacısı oğlu Vüqar və 1995-ci il təvəllüdlü Həsən Tağıyev cinayəti icra ediblər. Zaur Yusifovun atası Əli Yusifov isə bu ittihamları rədd edib, deyib ki, qətli Həsən Tağıyev törədib. Bildirib ki, Həsən Tağıyev cinayəti özü törədib, onu bu cinayətə təhrik edən olmayıb. Həsən Tağıyevin oğlunun şagirdi olduğunu, Emin Səfərovun onu öldürəcəyi ilə hədələdiyini diqqətə çatdırıb. Bildirib ki, qətl törədilən zaman o, Emin Səfərovun maşınında olub, onunla söhbət edib. Məqsədi isə Emin Səfərovu onun oğlunun şagirdi Həsən Tağıyevə qarşı hər hansı bir addım atmaqdan çəkindirmək olub. Həmin zaman Həsən Tağıyev maşına minib. Tərəflər arasında dava olub, o da dava edənləri ayırmağa çalışıb. Bu zaman qolundan 2 bıçaq xəsarəti alıb. Maşından düşüb evə qaçıb, oğlanları Zaur və Zamin onu xəstəxanaya çatdırıblar.



**Əli Yusifovun dediklərindən sitat:** "Mənim oğlum Avropa çempionudur. Onun sələm verməsi ilə bağlı deyilənlər yalandır. Oğlum idman ustasıdır, müəllimdir. Həsən onun tələbəsi olub. 6-cı mikrorayona gəlib yoxlasınlar, 1 adam desə ki, mənim oğlum sələmə pul verib, ondan imtina edərik. Bu şərdir, böhtandır. Emin belində pistolet gəzirdi, deyirdi ki, burada mənəm, məndən başqa oğul yoxdur. "Çölə" çıxandan sonra deyir ki, hamı mənim sözümlə oturub durmalıdır. Yalandan da deyirlər ki, guya Zaura deyib ki, sən sələmə pul vermə, camaatı incitmə. Belə şey olmayıb. 4 nəvəmin canına and içirəm ki, belə şey olmayıb. Yalan deyirlər. Mənim oğlum obyektinin təmirinə pul tapa bilmir, gedib yoldaşının qızıllarını qoyub lombarddan pul götürüb. Hər ay da lombarda pul ödəyir. Əlimizdə sənədlər var. Bu qədər yalan, şər, böhtan olmaz. Bizi 6-cı mikrorayonda çox adam tanıyır. Bilirlər ki, belə işlərdən kənar insanlarıq".

**Emin Səfərovun anası Məlahət Səfərova isə "Yeni Müsavat"a deyib ki, Əli Yusifov özünü və oğullarını istintaqdan kənar saxlamaq üçün yalan danışır:** "Mən prokurorluğa da getmişəm. Əli Yusifov deyir ki, oğlu Zaur Eminin bıçaqlanmasında iştirak etməyib. Yalan danışır. Zaurun ayağında bıçaq xəsarəti var. Hadisədə iştirak etməyibsə, həmin xəsarət onun ayağında haradan əmələ gəlib? Mənim oğlumun bağırsaqlarını yerə tökənlər azadlıqda gəzməli deyil. Oğlumun qətlində Əli Yusifovun özü də iştirak edib. O, Emini aldadaraq qapılarının ağzına aparıb. Orada Zaur, Zamin, Vuqar həmin bıçaqları oğluma bir yerdə vurublar".

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb, istintaq davam edir.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Nə əfv, nə amnistiya olacaq

## Mirvari Qəhrəmanlı: "Sərəncam gələn ilin martına qalacaq"



**28 May Respublika Günündə əfv sərəncamının verilməyəcəyi artıq məlumdur. İndi də gözlər 15 iyun Qurtuluş Gününə dikilib. Həmin tarixdə ölkəmizdə ya əfv sərəncamının, ya da amnistiya aktının imzalanacağı bildirilir.**

Bu barədə günlər öncə hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"da anons vermişdi. O, əfv sərəncamının olacağına inanmasa da, amnistiyanın veriləbiləcəyini açıqlamışdı.

Sitat: "Əfvin olacağını konkret deyə bilmərəm, bəlkə amnistiya verilsin. Bu olarsa, həbsxanadakı siyasilərin maddələri ora düşəcək. Əfvin birmənalı olmayacağını da demək olmaz. Sadəcə, mənə elə gəlir ki, amnistiya verilə bilər".

**N.Cəfəroğlunun həmkarı Mirvari Qəhrəmanlı amnistiyanın olacağına inanmır:** "Amnistiya təklifi parlamentdə səsləndirilə bilər. Əgər belə bir fikirləri olsaydı, bu təklifi 10 mayda, yəni Heydər Əliyevin doğum günündə irəli sürərdilər. 15 iyun ölkəmizdə vaxtilə cərəyan edən siyasi proseslər nəticəsində ortaya çıxan bir tarixdir. Bu baxımdan belə bir tarixdə amnistiyanın veriləcəyinə inanmıram. Əgər Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı belə bir qərar verilməyibsə, indi də verilməsi ehtimalı çox aşağıdır. Açığı, bu il üzrə ümidli deyiləm. İlin sonlarında əfv sərəncamının veriləbiləcəyi barədə fikirlər səslənir. Buna da inanmıram. Çox güman ki, sərəncam gələn ilin martına qalacaq. Amma onu da qeyd edim ki, son illərdə Cinayət Məcəlləsində müəyyən dəyişikliklər oldu. Ölkədə bəzi proseslər gedir. Məhbuslarla bağlı da yaxın vaxtlarda müəyyən proseslərin gedəcəyini düşünürəm. Bunu düşünmək üçün müəyyən əsaslarım var. Məsələn, kimsə düşünmürdü ki, İlqar Məmmədov əfvlə deyil, məhkəmə qərarı ilə azad olunacaq. Praktikada belə nümunələr var. İlin sonuna qədər bunlar baş verə bilər".



Xatırladaq ki, məhbuslarla bağlı son qərar bu ilin martında verilib. İmzalanan Novruz əfvi yüzlərlə məhbusu, o cümlədən 50-dən çox siyasi məhkumu əhatə edib.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019



# Milli məsələ

Zamin HACI
zaminhaci@gmail.com

"Təzə aşnalıqla köhnə dostluğun
Fərqi var qış ilə yaz arasında.
Namərddə qaydadır: kəsər basdığın,
Hər kəs hesab çəksin öz arasında"

*(Aşıq Ələsgər)*

**Adama deyirəm şpris zavodu açılıb, sevinməliyik, deyir: "Yiyəsinə qismət olsun". Gör nə qədər müdrik, uzaqgörən vətəndaşdır. Yeni yaradılan iş yerlərini bu cür uğurlamaq kimin ağlına gələrdi?**

Ümumiyyətlə, bu "yiyəsinə qismət" məsələsi hazırda bütün dünyada aktualdır. Hərə bir şeyi tutub yiyələnir, başqalarına da imkan vermir ordan yararlansın. Misal üçün, yankilərin özünün atom bombası var, ancaq İrana uranın zərrəciyini də çox görürlər. Yaxud, Çinin mobil telefon şirkətlərini blokadaya almağa başlayıblar. ZTE-ni vurublar, indi hədəfdə Huavey-dir. Guya bu şirkətin dalında Çinin hansısa hərbi agenturası dururmuş. O zaman biz nə edək, evimizin içində at oynadan Google, Apple, Feysbuk, İnstaqram, nə bilim, nə qramlarla?.. Bəlkə bunlar təhlükəsizlik, insan hüquqları, şəxsi həyata müdaxilə, lap elə hərbi baxımdan Allahın bacısı uşaqlarıdır? Yox, əlbəttə. Snouden-in yaydığı məxfi sənədlərdən, başqa çoxlu mənbələrdən də məlumdur ki, ABŞ-ın hətta kompüterimizin sönmüş ekranı, kamerasından bizi izləmək imkanları vardır. Bəs Çini niyə vururlar? Bazar söhbətidir. Dövlətin başına makler keçib, dünyanın ikinci və inkişafda olan bazarını çökdürmək istəyir. Ticarət müharibəsi aparır. Belə görünür uğurla.

Mayın 23-də Çinin xarici işlər naziri Van Yin müəllim Bakıya gəlmişdi, burdan da Tiflisə getdi. Aydın məsələdir ki, Çin Avropaya doğru qədim İpək yolu üzərindən əlaqələrini gücləndirmək xətti tutub. Biz də bu təcrübələrdən dərs almalıyıq. Hansı dərslər, yazım.

Baxın, biz 30 ildir dünyanın xoşuna gəlməyə çalışırıq. Ancaq heç zad alınmır. Manıs yarışması qayırırıq - pisləyirlər, qosqoca şəhərimizi bağlayıb uşaq kimi maşın sürməklərinə veririk - mız qoyurlar. İndi futbol yarışının finalını keçirməyə də peşman ediblər. Nəyə görə, bir erməni dığasına görə. Biabırçılıqdır. Ancaq bəsdir bu Avropanın, Qərbin dalıyca süründük. Bizim öz milli dəyərlərimiz, mentalitetimiz, multikulturalizmimiz vardır. Bizdə ağsaqqal süfrədə gəyirəndə bütün məclis mıx kimi qalxır ayağa ki, görəsən kişiyə nə oldu. Ağbirçəklərimiz bayatı söyləyəndə göydə nəinki quşlar, AZAL-ın beynəlxalq reyslərinə minik müvəqqəti dayandırılır. Ancaq gedib-gələnlər danışır ki, Avropada belə qanacaqlı adamlar qətiyyən yoxdur, utanıb-çəkinmədən ictimai yerlərdə qaz buraxırmışlar. Tfu... Bəs biz niyə bunları cəhənnəm eləmirik? Qoy rədd olsunlar bütün finalları ilə... Lazım gələr özümüz Böyük Şor Olimpiyat Stadında "Qəbələ" - "Kəpəz" finalı keçirdərik. Vallah, bizim "Topaz-Premyer-Liqa"sı İngitlərənin, İtaliyanın, İspaniyanın yerli çempionatlarından min dəfə mənalı, məzmunlu, gözəldir. Əsas odur özümüzündür! Klassik necə demişdi? "İtə ataram, yada satmaram!". Bəs bizə, onun nəvələrinə nə düşüb ki, vətənin stadionlarını hansısa "arsenal" dığalarına ucuz qiymətə satırıq?

Əvvəl-axır onsuz bütün dünya qapılarını bağlayıb, hasar çəkib öz xarabasında oturacaq. Qloballaşma iflasa məhkumdur, çünki insan nəsli bir yerdə yaşamağa layiq, qadir deyildir. Çinin özünün qapalı "interneti" var, Rusiya da təzəlikcə bu gözəl işə girişibdir. İndi biz də öz internetimizi yaratsaq yaxşı olmazmı? Özün yaz, özün layk elə. Özün özündən ləzzət al, türkün sözü. Ən yaxşısı, ən təhlükəsizi, ən doğrusu, ən sərfəlisi bu deyilmi? Allaha şükür, özümüzün hər şeyimiz var. Şprisi yazdım, maşından velosipedə, raketdən xiyara qədər hər şeyi istehsal edirik. Bütün dəmiryolu stansiyalarında dükanlar da açılıb. Qatara min, get Sumqayıtdan alver elə, gəl. Biləcəridə düş, get əsgərliyə, ordan qayıt, Yasamalda universitet oxu, Semaşkoda həkim olub camaatın qarnın yar, nə bilim, idarədən pasport al.

Yaxşı yadıma düşdü, elə bu pasportu almağın üsullarını dünyaya biz başa salmadıqmı? Yoxsa Vestministerdən başlayan pasport quyruğu Edinburqa qədər çatırdı. İndi bizə ağıl verən çıxıblar. Neftimiz burnunuzdan gəlsin.

Gəlin sərhədi bağlayaq, nə gələn olsun, nə gedən, cənnət yurdumuzda özümüz yaşayaq. Rəhmətlik Fərhad müəllim demişkən: "Öz pomidorumuz, öz musiqimiz".

# ABŞ Paşinyanın adamını qapı dalında qoydu - Ağ Ev İrəvana "dirsək" göstərdi, İsrail isə...

## Con Bolton Ermənistan Təhlükəsizlik Şurasının katibini qəbul etmədi; İsraildən də İrəvana bəd xəbər gəldi: Azərbaycanın dostu Liberman müdafiə naziri postuna qayıdır; Paşinyan isə əsgər oğlunu Qarabağdan təcili Ermənistana apardı - səbəb...

**Ermənistanın yeni hakimiyyətinin xarici siyasətlə bağlı "iki stul" taktikası tam fiasko sayıla bilər. Reallıq belədir ki, özünü bir ildir həm "qərbyönlü", həm də "rusiyayönlü" göstərməyə çalışan Nikol Paşinyana indi nə Qərb, nə də Rusiya simpatiya bəsləyir. Hər iki qlobal güc mərkəzi ona etibar eləmir, şübhəli nəzərlə baxır, onu "özününkü" saya bilmir.**

İşğalçı ölkənin təzə rəhbəri isə çox istəyirdi ki, onun bir əlindən Putin, o birindən isə "Sem dayı" tutsun. Biri Ermənistana ucuz silah-sursat, təbii qaz versin, digəri böyük maliyyə-siyasi dəstək. Alınmadı. Ənənəvi erməni hiyləgərliyi keçmədi. Çünki artıq zaman başqadır. Ən əsası, taleyinə "peşka" rolu yazılanlar iri "fiqurlar"la bərabər şərtlərlə oynaya bilməz.

*****

Rəsmi İrəvanın "iki stul" siyasətinin iflası bu günlərdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın uğursuz ABŞ səfəri zamanı özünü qabarıq büruzə verib. Halbuki Qriqoryan "qərbçi"lərdən, "Soros uşaqları"ndan biridir və anti-Rusiya mövqeyi ilə tanınır. Onun təyinatı vaxtilə hətta Kremldə açıq qıcıq yaratmışdı. Bununla belə, Paşinyanın adamını ABŞ-da olduqca soyuq qarşılayıb, soyuq da yola salıblar.

Əsas səbəb qaranlıq deyil. Səbəb ilk növbədə Armen Qriqoryanın təmsil olunduğu komandanın - "qərbyönlü" Paşinyan hökumətinin ABŞ-ın gözləntilərinə və Paşinyanın verdiyi vədlərə rəğmən, Ermənistanı Rusiya orbitindən uzaqlaşdırmağa hər hansı səy göstərməməsi, əksinə, Rusiyanı xarici siyasətin əsas prioriteti elan eləməsi və Kremlə daha da yaxınlaşma kursu götürməsi, o sırada hətta Moskvanın istəyi ilə Suriyaya humanitar-hərbi missiya göndərməsidir.

Yada salaq ki, sonuncu addımla bağlı ABŞ Dövlət Departamenti sərt bəyanatla çıxış eləmiş, İrəvanı "qaniçən və zalım Əsəd rejiminə dəstək verməkdə ittiham eləmişdi"...

*****

"Armen Qriqoryanın ABŞ səfəri olduqca uğursuz olub". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə İrəvanda nəşr olunan "Qraparak" qəzeti yazıb. Nəşrin bildirdiyinə görə, Ermənistan XİN-in və ABŞ-dakı səfirliyin cəhdlərinə baxmayaraq , səfər çərçivəsində ciddi hər hansı görüşlün keçirilməsinə nail olunmayıb. Bu azmış kimi, Qriqoryanı heç ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton da qəbul eləməyib. Ermənistan Təhlükəsizlik Şurasının katibi yalnız Boltonun ofisinin nümayəndəsi ilə görüşməklə kifayətlənməli olub. Nəşr xatırladır ki, Bolton ötən ilin oktyabrında İrəvanda olarkən də Qriqoryanla tet-a-tet görüşməkdən imtina edib.

Yeri gəlmişkən, Cin Bolton İrəvan səfərində açıq tonda bəyan eləmişdi ki, Ermənistan Rusiya ilə ənənəvi bağları zəiflətmək, qonşu Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdırıb Rusiyadan asılılığı azaltmaq üçün tezliklə Qarabağ məsələsində real addımlar atmalıdır. Bunların heç biri baş vermədi. Odur ki, Paşinyanın adamının qapı dalında qoyulması tam məntiqlidir. Bununla Vaşinqton bir daha Ermənistan rəhbərliyinə öz narazılığını çatdırmış olub, ondan maliyyə uman İrəvana "dirsək" göstərib.

*****

İrəvan üçün başqa bir bəd xəbər İsraildən gəlib. "Yeni Müsavat"ın MİGnews-a istinadən verdiyi xəbərə görə, seçkilərdən sonra uzun sürən mübahisələrdən sonra baş nazir Benyamin Netanyahu Azərbaycanın böyük lobbistlərindən olan Avidqor Libermanın müdafiə naziri postuna qayıtması təklifini bəyənib. Bu barədə Netanyahu ilə Liberman arasında mayın 22-də baş tutmuş görüş zamanı prinsipial razılıq əldə olunduğu bildirilir.

İsrailin, xüsusən də Avidqor Libermanın Azərbaycan ordusunun döyüş qabiliyyətinin artırılması və modern silahlarla təchiz olunmasında rolu danılmazdır. Son olaraq 2016-cı ilin 4 günlük aprel döyüşləri zamanı ordumuzun arsenalındakı İsrail istehsallı silahlar öz sözünü demiş, düşmən tərəfdə böyük canlı itkilərə və vahiməyə səbəb olmuşdu. Bu mənada ötən ilin payızında müdafiə naziri qismində Bakıda çoxgünlük səfərdə olan Libermanın öz postuna qayıdışı sözsüz ki, Azərbaycan-İsrail hərbi və hərbi-texniki əməkdaşlığına yeni bir stimul vermiş olacaq. Azərbaycanı güc yolu ilə öz ərazi bütövlüyünü bərpa etməsinə daha da yaxınlaşdıracaq.

Söz yox ki, belə perspektiv İrəvanda təlaş yaradır. Təsadüfi deyil ki, az öncə İsraildə səfərdə olan erməni xarici işlər naziri Zoqrab Mnatsakanyan rəsmi Təl-Əvivdən Azərbaycana silah satışını dayandırmağı israrla xahiş eləmişdi. Təbi ki, bu xahiş qəbul olunmadı. Çünki Azərbaycanla İsraili təkcə hərbi sferada əməkdaşlıq birləşdirmir...

*****

Bu arada başqa bir ilginc xəbər işğal altındakı torpaqlarımızdan gəlib. Məlum olub ki, baş nazir Nikol Paşinyan öz oğlu Aşotun hərbi xidmət yerini dəyişdirib və onu Qarabağdan Ermənistana gətizdirib (axar.az). Bu haqda məlumat sosial şəbəkələrdəki erməni səhifələrində yayılıb. Məlumata görə, Aşot Paşinyan Qarabağdan İrəvandakı Nubaraşen rayonunda olan hərbi hissəyə yerləşdirilib.

**Məsələyə Ermənistan Müdafiə Nazirliyi də münasibət bildirib. Nazirliyin mətbuat katibi Artsrun Ovannisyan facebook səhifəsində yaydığı açıqlamada Azərbaycanı ittiham edərək, dolayısıyla həm Bakını yayılan xəbərlərin arxasında dayanmaqda ittiham edib, həm də özü də bilmədən yayılan şayiələri təsdiqləyib:** "Mən Azərbaycan stilindəki məqalə başlıqlarını şərh etməyəcəyəm. Ermənistan silahlı qüvvələrinin istənilən hərbçisi müxtəlif vaxtlarda və müxtəlif yerlərdə müxtəlif toplanış, imtahan və hərbi təlimlərdə iştirak edə bilər".

Ancaq bəllidir ki, Paşinyanla Qarabağ klanı arasında münasibətlər eks-prezident Robert Köçəryan azadlığa çıxandan sonra gərginləşib. Belə ki, bundan sonra məhkəmələri mühasirəyə aldıran Paşinyan Qarabağdakı qondarma rejimi əks-inqilabi fəaliyyətdə və torpaqları Azərbaycana satmaqda ittiham edib. Ardınca Paşinyanın öz oğlunu Qarabağdan Ermənistana apartdırması diqqət çəkir.

Görünür, erməni baş nazir bir yandan oğlunun Qarabağ klanına bağlı dairələrin, qatı rəqiblərin əlində girova çevriləcəyindən, digər yandan isə son vaxtlar daha da təkmilləşən Azərbaycan ordusunun hər an başlada biləcəyi antiterror əməliyyatından ehtiyatlanır. Haqlı təlaşdır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# ABŞ-la İran toqquşsa, Bakı nə etməlidir?

**ABŞ prezidenti Donald Tramp növbəti dəfə bəyan edib ki, İranla müharibə etmək istəmir. Bu təkzibi ABŞ prezidenti bir gün qabaq "Associated Press" (AP) Xəbər Agentliyinin amerikalı rəsmilərə istinadən Pentaqonun Fars körfəzinə əlavə olaraq 10 min hərbçi göndərəcəyi ilə xəbərindən sonra verib.**

Ötən həftə də "Nyu-York Times" qəzeti ABŞ-ın Fars körfəzinə 120 minlik qüvvə göndərəcəyi barədə xəbər yaysa da, prezident Tramp bu xəbəri təkzib edib. Lakin bütün bu təkziblərlə yanaşı Pentaqon İran ətrafına qüvvə toplamağa davam edir.

Qeyd edək ki, mayın əvvəlində ABŞ hökuməti Fars körfəzinə əlavə qüvvələr göndərib. İlk olaraq "USS Abraham Linkoln" aviadaşıyıcısının rəhbərlik etdiyi zərbə qrupu Aralıq dənizindən Fars körfəzinə göndərilib. Eyni zamanda Qətərdəki ABŞ aviabazasında 4 ədəd nüvə bombası daşıyan B-52 taktiki bombardmançıları göndərilib. Vaşinqton Fars körfəzinə "Patriot" zenit-raket qurğuları və əlavə olaraq "USS Arlington" döyüş gəmisini də yollayıb. Amerika mətbuatı yazıb ki, körfəzdəki qüvvələrin sayının artması İrandan gözlənilən hücum təhlükəsidir.

Əlbəttə, İran və ABŞ arasında gərginlik daha əvvəl də olub və hətta 30 il əvvəl Fars körfəzində məhdud səviyyədə döyüş əməliyyatları baş verib. Ancaq indi həm İranın nüvə sazişindən çıxması, ABŞ-ın ağır sanksiyaları və buna paralel olaraq regionda gərginliyin sürətlə yüksəlməsi savaş olacağı ilə bağlı əndişəni artırır. Təbii ki, ortada bir çox versiya var və Vaşinqtonun İranı zəiflətmək üçün yalnız sanksiyalar deyil, hərbi varianta əl atacağı da proqnozlaşdırılır.

Təbii ki, hər dəfə İrana hərbi müdaxilə məsələsi gündəmə gələndə qonşu ölkə olaraq Azərbaycanda müzakirələr başlayır. Ölkəmizin İranla 700 kilometrlik quru sərhədi, həmçinin dəniz sərhədi var. Savaş olarsa ölkəmizə yüz





**Toğrul İsmayıl:** "Müharibənin Azərbaycan üçün ağır iqtisadi, sosial nəticələri ola bilər"

**Hikmət Hacızadə:** "Biz belə böyük böhranlara mütləq hazır olmalıyıq"

minlərlə qaçqın gələ bilər. Üstəlik, hərbi əməliyyatın xarakterindən və yayılma coğrafiyasından asılı olaraq bizim ərazilər də zərər görə bilər. Digər tərəfdən, İranda yaşayan milyonlarla azərbaycanlı müharibənin zərərçəkəni, həmçinin qurbanlarına çevrilə bilər. Yəni İranla ABŞ arasında münaqişə hər bir halda Azərbaycan üçün ciddi risk faktorudur. Bəs ölkəmiz bu gərginliyə necə hazırlaşmalıdır? Hazırda belə bir əməliyyata hazırıqmı?

**Politoloq Hikmət Hacızadə düşünür ki, Azərbaycan bütün variantlarda bu savaşa hazır olmalıdır. Politoloq bizim tərəfsiz olmağımızı təklif edir, amma seçim qarşısında qalsaq seçim etməliyik:** "Əlbəttə, biz belə böyük böhranlara mütləq hazır olmalıyıq. Çalışmaq lazımdır ki, maksimum qıraqda qalaq, qarışmayaq. Bu, mümkün olmasa, məcburən bir tərəfi seçməli olsaq, əlbəttə, ABŞ-ı seçməliyik. İran rejiminin gələcəyi yoxdur. Ola bilsin ki, heç Rusiya da İranı dəstəkləyə bilməyəcək".

**Ancaq H.Hacızadə düşünür ki, ABŞ İrana birbaşa hərbi müdaxilə etməyəcək. Onun fikrincə, Vaşinqtonun digər alternativləri var:** "Çətin ki, ABŞ özü bilavasitə hərbi əməliyyatlara əl qoysun. Ya İsraili qabağa verəcək, ya İranda hansısa sosial ya da milli zəmində iğtişaş yaratmağa çalışacaq, "Hibrid müdaxilə" yaradacaq. Dissidentlərə və inqilabçılara yardım göndərəcək. Çalışacaq İran elitasını parçalasın. Yenə vurğulayıram: bir tərəfdə olmaq məcburiyyəti qarşısında qalsaq, gərək Qərbi seçək. Və əlbəttə, bizim ərazidən istifadə məsələsi qalxarsa, bunu müqavimət göstərməliyik, amma bacarmasaq, Qərbin yanında olmalıyıq. Və bir şeyi də nəzərinizə çatdırmaq istəyirəm ki, İran rejiminə təzyiq İran xalqında nifrət demək deyil. İran xalqı başqa, İran rejimi - başqadır".

**Politoloq Toğrul İsmayıl deyir ki, adətən Amerikanın İranı vuracağı mövzuları gündəmə gələndə Azərbaycanda əsasən Güney Azərbaycanın müstəqilliyi, gələcəkdə birləşmək məsələsi xatırlanır. Ancaq ekspertin fikrincə, bütün bunlar indiki halda ancaq xəyallardır:** "Reallıqda gözlənilən müharibənin Azərbaycan üçün ağır iqtisadi, sosial nəticələri ola bilər. Həm İrandakı soydaşlarımızın, həm də digər qrupların Azərbaycana qaçqın kimi axını ilə üzləşə bilərik. Buna hazırlıqlı olmalıyıq".

**T.İsmayıla görə, əsas məsələ Azərbaycanın münaqişə tərəfi olmamasıdır:** "İkinci məsələ odur ki, bu kimi vəziyyətlərdə hər şey ölçülüb biçilməli, ehtiyat tədbirləri görülməlidir. Azərbaycan öz ərazisinin İran üçün platsdarma çevrilməməsi üçün ehtiyatlı davranmalıdır. Azərbaycanda İrana nifrət səbəbindən bəzi dairələrdə ölkə ərazisinin ABŞ və İsrail tərəfindən İrana qarşı istifadəsi üçün verilə biləcəyi ehtimalları səsləndirilir. Ancaq unutmaq olmaz ki, bu çox təhlükəli hal olardı. Bu kimi mövzuların çox ölçülüb-biçilməsi, ehtiyatlı tədbirlər tələb edən məsələlərdir. İran bizim qonşudur, Amerika isə bizə daha uzaqdır. Yəni belə bir addım bizim hədəfə çevrilməmiz, həm də uzun illər davam edəcək düşmənçiliyin əsasını qoya bilər".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Ermənistan ABŞ-ın müttəfiqinə niyə çevrilə bilmədi?

## Politoloq: "Paşinyandan gözlədiklərini ala bilmədilər"

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ-da səfərdə olub. Lakin onun səfəri uğursuz qiymətləndirilir. Belə ki, erməni mediası ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Qriqoryanı qəbul etməkdən imtina etdiyini yazıb.**

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a şərhində bildirdi ki, ABŞ get-gedə Paşinyan hakimiyyətinə olan ümidlərini itirir: "Paşinyandan gözlədiklərini ala bilmədilər. Ona görə də belə görünür ki, Paşinyan hökumətindən tədricən üz döndərmək istəyirlər. Əvvəla, ABŞ Paşinyan hakimiyyətinin Rusiya və İranla yaxınlaşmasına sözsüz ki, müsbət yanaşa bilməz. Lakin Paşinyan bu iki dövlət tərəfindən onun hakimiyyətinə ola biləcək mümkün təhdidləri önləmək üçün onların da maraqlarını nəzərə almaya bilməz. Bu da ABŞ-ı narahat edir. Təbii ki, ABŞ prezidentinin milli təhlükəsizlik müşavirinin qəbulunda olmaq Ermənistan Milli Təhlükəsizlik Şurası katibi üçün asan məsələ deyil. Paşinyan özü belə Nyu-Yorkda olarkən BMT Baş Assambleyasının illik sammitində Trampın audensiyasında olmağa can atsa da, Tramp onu qəbul etməmişdi. ABŞ kimi fövqəldövlətin siyasi isteblişmentində yüksək post tutan şəxslərlə ünsiyyət o zaman mümkün olur ki, onlar bunu lazım bilsinlər. Ermənistan kimi kiçik dövlətlərin siyasi elitasının istəyi burada ancaq audensiya xahiş etməkdən ibarət ola bilər".

**Politoloqa görə, ümumiyyətlə, Armen Qriqoryanın ABŞ səfəri çox uğursuz olub:** "Ermənistan XİN, Vaşinqtondakı səfirliyin, Amerikadakı erməni diasporasının bütün səylərinə baxmayaraq Ermənistan Milli Təhlükəsizlik Şurasının katibinə uğurlu səfər proqramı düzənləmək mümkün olmayıb. Qriqoryan ABŞ-da yüksək səviyyəli rəsmilər tərəfindən qəbul edilməyib, heç bir ciddi görüş keçirə bilməyib və qeyd etdiyimiz kimi, Con Boltonla görüş xahişi rədd olunub. Nəticədə Qriqoryan Boltonun ofisindən nümayəndə ilə görüşmək məcburiyyətində qalıb. Bolton ötən ilin payızında Ermənistana səfəri zamanı da Qriqoryanla təkbətək görüşməmişdi. Düşünürəm ki, burada Armen Qriqoryanın şəxsiyyətinin də müəyyən rolu var. Doğrudur, o, Paşinyanın yaxın silahdaşlarından biridir, politoloq olub, İrəvandakı Amerika Universitetinin məzunudur, uzun illər vətəndaş cəmiyyəti fəali olub və sair. Lakin bütün bunlara kölgə salan bir mühüm amil var: o, Qarabağ ermənisidir.



Qarabağdakı separatçı ermənilərin isə Rusiyaya yaxın olduqları, onun himayəsində öz mövcudluqlarını qoruyub-saxladıqları sirr deyil. Ola bilsin ki, onun Qarabağdan, Xocavənddən olması ABŞ-da Ermənistan Milli Təhlükəsizlik Şurası katibinə etibar etməməyə əsas verib. Bəlkə də ABŞ hökuməti Armen Qriqoryanı Paşinyan hakimiyyətində Qarabağ klanının "Troya atı" hesab edir. Üstəlik, nəzərə alsaq ki, Armen Qriqoryan Vaşinqtondan sonra iyun ayında Moskvaya səfərə gedəcək, Boltonun onunla görüşməkdən imtinasının səbəbini həm də bununla izah etmək olar. Ən əsası isə ondan ibarətdir ki, Nkiol Paşinyan və onun komandası hələ tam şəkildə bir ildə ABŞ-ın etibarlı müttəfiqinə çevrilə bilməyib, fövqəldövlətin etimadını qazana bilməyib".

**N.Məmmədovanın sözlərinə görə, şübhəsiz ki, Paşinyan Qriqoryanı özbaşına bu vəzifəyə təyin etməyib, yəqin ki, öz komandasının üzvlərini onu hakimiyyətə gətirən qüvvələrlə razılaşdırıb:** "Lakin 1983-cü ildə Azərbaycanın Xocavənd rayonunda doğulmuş Armen Qriqoryanın təyinatı Qarabağ ermənilərinə edilmiş jest kimi də qiymətləndirilə bilər. Üstəlik, ötən ilin oktyabrında onun Qarabağda yaşayan atasının bəzi versiyalara görə intiharı, bizim versiyaya görə isə öldürülməsi Milli Təhlükəsizlik Şurasının katibi ətrafında müəmmanı artırmışdı. Odur ki, Boltonun onu qəbul etməməsinin səbəbsiz olmadığı, bunun kökündə isə Ermənistan rəhbəriyinə, o cümlədən Armen Qriqoryana etimadın zəifləməsini göstərmək olar".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

# “Diqlas” hasara alındı: söküntü başlayıb

## Ticarət mərkəzinin ətrafında piştaxtalar qurulub, ticarət bərpa olunub...

**Martın 26-da yanğın baş verən “Diqlas” Ticarət Mərkəzinin söküntüsü sürətlənib. “Yeni Müsavat”ın əməkdaşı ərazidə olduğu zaman müşahidə edib ki, ticarət mərkəzinin qarşısında olan piyada keçidinin girişləri bağlanıb. “Diqlas”ın qarşısında avtomobillərin hərəkəti məhdudlaşdırılmasa da, piyadaların əraziyə buraxılması yasaqlanıb. Bundan əlavə, ticarət mərkəzinin qarşısından polislərin quraşdırdığı maneə götürülüb. Bunun yerinə təhlükəsizlik məqsədilə dəmirdən hasar çəkilib. “Diqlas”ın arxasında, sağ və sol yanlarında eskalatorlar işləyir. Bu texnikalarla ticarət mərkəzinin konstruksiyaları sökülür, ətraf ərazi təmizlənir.**



Yanan ticarət mərkəzinin içərisində də söküntü işlərinə başlanılıb. Yuxarı mərtəbədə dəmir konstruksiyaların söküntüsü həyata keçirilir. Nizami Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qərib Məmmədov bildirib ki, söküntünü Fövqəladə Hallar Nazirliyi həyata keçiriəcək. Onun sözlərinə görə, söküntünün 4 ay ərzində tamamilə yekunlaşdırılması planlaşdırılır.

“Diqlas”ın ətrafında gəzdiyimiz zaman müşahidə etdik ki, ərazidə xeyli sayda piştaxtalar tikilib. Piştaxtaların arxasında dayanan satıcılarla da söhbət etdik. Onlar bildirdilər ki, ticarət mərkəzi yanmazdan öncə “Diqlas”ın arxasında özlərinin şəraiti olub. Yanğın nəticəsində alov ticarət mərkəzindən kənara da keçib, həmin piştaxtalar da yanıb. Satıcılar bildirdilər ki, bazar rəhbərliyi onlara hörmət edib, yeni yerlərindən bir müddət pul almayacaqlarını deyiblər. Piştaxtalarda çin istehsalı olan ucuz geyimlər, xırdavat məhsulları, uşaq oyuncaqları və digər bu kimi məhsullar satılır. Piştaxtalar qurulduqdan sonra “Diqlas”la “Lotos” arasındakı yol daralıb və oradan bazara gələnlərin keçməsi çətinləşib. Satıcılar bildirdilər ki, “Diqlas”ın yerində nə tikiləcəyini bilmirlər. Ancaq hesab edirlər ki, orada yenə də ticarət mərkəzi inşa olunacaq və piştaxtalarını yol kənarından söküb, yeni ticarət mərkəzinin içərisində quracaqlar.

**“Diqlas”da malları yanan sahibkarlara gəlincə isə onlara da dövlət tərəfindən ayrılan vəsait tamamilə ödənilib. Bu barədə məlumatı İqtisadiyyat Nazirliyi yayıb. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov tədbirlərin birində jurnalistlərə açıqlamasında söyləyib ki, “Diqlas” Ticarət Mərkəzində baş verən yanğında dəyən ziyanın inventarizasiyasi başa çatdırılıb və hazırda istintaq prosesi davam edir. S.Məmmədov həmçinin bu tipli hadisələrin bir daha təkrarlanmaması üçün sahibkarlara öz əmlaklarını sığortalanmasını tövsiyə edib:** ““Diqlas” Ticarət Mərkəzində baş verən yanğınla bağlı ayrılan vəsait sahibkarlıq subyektlərinə seçilmiş banklar vasitəsilə artıq təqdim olunub. Onlara dəyən ziyanın inventarizasiyasi başa çatdırıldı və hazırda istintaq prosesi davam edir. Biz istintaqın nəticəsini gözləməliyik".

**Nazir müavininin sözlərinə görə, beynəlxalq təcrübəyə uyğun olaraq bu proseslər sığorta mexanizmləri ilə tənzimlənir:** “Həmçinin belə hallar baş verdikdə sığorta mexanizmləri işə düşür və sahibkarlıq subyektlərinə sığorta şirkətləri tərəfindən dəyən ziyan ödənilir. Sözsüz ki, Azərbaycanda bu sahədə də qanunvericilik əsasları mövcuddur və qanunvericilikdə bu məsələlər nəzərə alınıb. Sahibkarlarımıza tövsiyəmiz odur ki, öz əmlaklarını sığortalasınlar ki, gələcəkdə belə hallarla üzləşməsinlər”.

Hazırda ticarət mərkəzinin ətrafında fəaliyyət göstərən tikililərin hamısı sökülüb. Onlara hər hansı bir maddi yardımın edilməsi nəzərdə tutulmayıb. Eyni zamanda “Diqlas”ın arxasında böyük bir sahədə piştaxta qurub, müxtəlif ucuz geyimlər satanlara da dövlət tərəfindən maddi yardımın edilməsi nəzərdə tutulmayıb.

Hüquqi Aktların Dövlət Reyestr Xidmətinin yaydığı məlumatda qeyd edilib ki, maddi yardımın məbləği mağaza, anbar icarəyə götürmüş zərərçəkmiş sahibkara - 10000 manat; piştaxta və digər sahə icarəyə götürmüş zərər çəkmiş sahibkara - 2000 manat müəyyən edilib.

Məlumat üçün qeyd edək ki, rəsmi açıqlamalara görə, binanın yanğından tam şəkildə mühafizə olunan sahəsi isə 275 kvadratmetr təşkil edib. Belə ki, yanğından tam qorunan 175 kvadratmetrlik sahə binanın sağ yan hissəsinə, 100 kvadrat metrlik sahə isə binanın ön hissəsində yerləşən mağazalara aiddir. Binanın ümumi sahəsi 17 559 kvadratmetrdir.

Yanğın nəticəsində zərər görən sahibkarlara İqtisadiyyat Nazirliyi tərəfindən müxtəlif yerlərdə, aylıq icarə haqqı ödəmədən obyektlərdə ticarətlə məşğul olma imkanı yaradılıb. İstəyən sahibkar bu imkandan yararlana bilir. Lakin sahibkarların əksəriyyəti ilə söhbətimiz zamanı onlar bildirdilər ki, əlavə iş qurmaq üçün əllərində heç bir vəsait yoxdur. Ona görə də yaradılan imkandan yararlana bilmirlər...





Onu da qeyd edək ki, “Diqlas”ın binası söküldükdən sonra yerində hansı məqsədlə və nə üçün tikilinin ucaldılacağı barədə rəsmi açıqlama verilməyib. Sadəcə olaraq, ticarət mərkəzinin rəhbərləri zərərçəkən sahibkarlarla söhbətləri zamanı bildiriblər ki, bina bərpa ediləcək və yenidən ticarət mərkəzi kimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, ticarət mərkəzində baş verən yanğın zamanı ölən olmayıb, 6 nəfər yüngül xəsarət alıb, 10-a yaxın şəxs isə tüstüdən zəhərlənib.

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**
**Fotolar müəllifindir.**

# Azərbaycanlıların başqa xalqlara heyranlığının səbəbi

## Əhməd Qəşəmoğlu: “Millət olaraq qəhrəmanlığa, qələbəyə təşnəyik”

**Cəmiyyətimizin bəzi kəsimləri vaxtaşırı yaxın-uzaq ölkələrdə baş verənlərə xüsusi heyranlıqla yanaşır. Bu, uzun illərdir davam edən prosesdi. Bəzi örnəklər verək. Məsələn, 1994-cü ildə Rusiya ilə Çeçenistan arasında müharibə başlayanda çeçenlər rus ordusuna qarşı ciddi dirəniş göstərirdi. Müharibədə məğlub olmuş xalq olaraq çeçenlərin bu tövrünü heyranlıqla izləyirdik.**



Onları qəhrəman xalq adlandırırdıq. Amma bu uzun sürmədi. Rus-çeçen savaşı ikincinin ziyanına ağır məğlubiyyətlə yekunlaşdı. Halbuki çeçenləri nümunə göstərib, özümüzü tənqid edirdik. “Bir Dudayevimiz də olmadı...” deyib, köks ötürürdük. Şamil Basayevə və başqa çeçen səhra komandirlərinə həsəd aparırdıq. Çünki bu müharibənin arxasındakı mahiyyəti, gerçək səbəblərini bilmirdik. Səhnəarxasına bələdçiliyimiz olmadığından, üzdəkilərə tamaşa edib, riqqətə gəlirdik. “Biz niyə çeçenlər kimi cəsur olmadıq” deyib, öz gözümüzdə özümüzü kiçildirdik.

Hələ bundan öncə - birinci körfəz müharibəsi zamanı İraq prezidenti Səddam Hüseynə necə rəğbətimiz yaranmışdı. Onu müsəlman olduğu üçün müdafiə edirdi azərbaycanlılar. Həmin dövrdə din amili ölkəmizdə sürətlə yayılırdı. İstənilən dini təbliğat cəmiyyətin dərin qatlarına qədər işləyirdi. Ona görə də səddamçı olmuşduq. Daha bilmirdik ki, S.Hüseyn başkəsənin, cəlladın biridir. Öz din qardaşlarını min bir əzabla öldürürdü. İnsanları sulfat turşusunda yandırırdı. Siyasi müxalifətin nümayəndələrini itlərin qabağına atdırıb, parçalatdırırdı. Və bu səhnəni ləzzətlə seyr edirdi.

Daha sonralar bu heyranlıq Gürcüstana, Ukraynaya, Qırğızıstana yönəldi. İnsaf naminə demək lazımdır ki, Səddam Hüseyndən, Şamil Basayevdən Saakaşvilini, Yuşşenkonu “balet” eləmək daha sivil davranış idi. Çünki orda demokratik proseslər gedirdi. Seçki və məxməri inqilab yoluyla iqtidar dəyişikliyi olurdu. Lakin bu da yolverilməz idi. Hər bir xalq öz potensialını işə salıb, başının çarəsinə baxmalıdır. Qonşuya tamaşa edib, ağzının suyunu tökməklə deyil...

Ən son qaragüruh heyranlığımız Ukraynanın yeni seçilmiş prezidenti Zelenskiyə oldu. Vəzifəsinin icrasına başlamamış, bəzi azərbaycanlılar onu Ukraynanın xilaskarı elan etdilər.

Bu aşırı heyranlığın səbəbi nədir? Niyə qonşu dövlətlərə, xalqlara baxıb, həsəd aparırıq?

Yeri gəlmişkən, Azərbaycanın bəzi müxalifət liderləri Venesuelada baş verənləri də nümunə kimi göstərib, “vaxt gələcək, Azərbaycan xalqı da öz haqqı uğrunda bu cür ayağa qalxacaq” deyib, həsəd aparırdılar. Halbuki Venesuelada gerçək bir faciə yaşanır. Faciəni nümunə kimi ictimai rəyə sırımaq, “kaş biz də onların gününə düşəydik” arzulamaq hansı məntiqə sığır?

**Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu “Yeni Müsavat”a danışıb:**

“Bu məsələ həmişə məni düşündürür. Fikrimcə, bunun bir neçə səbəbi var. Ən başlıcası məğlubiyyətdir. Azərbaycanlılar yüz illərdir torpaq itirir, işğala məruz qalır. Son 200 ildə başımıza gəlməyən qalmayıb. Azərbaycanı Rusiya və İran iki yerə bölüb. Rusiya bizi 200 il əsarətdə saxlayıb. Qarabağ kimi süni və qondarma bir problem yaradıb. Müharibədə ermənilərə açıq dəstək verib. Torpaqlarımızı yalnız Ermənistan silahlı qüvvələri işğal etməyib, Rusiya ordusunun ayrı-ayrı bölmələrinin yaxından dəstəyi və iştirakı ilə bu işğal həyata keçirilib”.

**Ə.Qəşəmoğlunun fikrincə, digər səbəb ölkəmizdə demokratik proseslərin ləng getməsidi:** “Ona görə də azərbaycanlılar qəhrəmanlığa, qələbəyə təşnədilər. Demirəm, biz qəhrəman xalq deyilik. Əksinə, azərbaycanlılar qəhrəmanlıqda heç bir xalqdan geri qalmırlar. Sadəcə, böyük güclərin basqısı hər zaman üzərimizdə olub. Bizi bölüb, parçalayıblar. Zəiflədiblər. Hər dəfə vətənimizi müdafiə etmək üçün ayağa qalxanda, olmazın faciələrlə üzləşmişik. Bu da istər-istəməz millətin psixologiyasında mənfi izlər buraxıb”.

**Ə.Qəşəmoğlunun sözlərinə görə, müharibədə və siyasətdə məğlubiyyətlə üzləşən azərbaycanlılar digər xalqların bu sahələrdəki uğurlarına heyranlıq yanaşırlar:** “Amma bu heyranlığı uzun müddət davam etdirmək yanlışdı. Xalq olaraq öz taleyimizə sahib çıxmalı, düşdüyümüz məğlub durumdan çıxmağı bacarmalıyıq. Elə etməliyik ki, başqa xalqlar bizim siyasətdə, hərbdə, başqa sahələrdəki uğurlarımıza baxıb, qibtə etsinlər”.

**❑ Xalidə GƏRAY**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakıdan İrəvana müharibə xəbərdarlığı: sülhdən qaçan savaşa tuş gələr

## Status-kvonun uzanması ən çox Ermənistanın əleyhinə işləyir - səbəb; Azərbaycan ordusunun düşməni təlaşda saxlayan intensiv təlimlərində daha bir hədəf; **politoloq:** "Aprel döyüşləri işğalçı ordunun hazırlıq səviyyəsinin hansı vəziyyətdə olduğunu göstərdi..."

**Ordumuzun növbəti genişmiqyaslı hərbi təlimləri başa çatdı. Bu təlimlə silahlı qüvvələrimiz şübhə yox ki, özünün döyüş qabiliyyətini bir az da artırmış oldu. Xüsusən də işğalçı qüvvələrə qarşı gecə əməliyyatlarının uğurlu aparılması baxımından Azərbaycan ordusunun təmas xətti yaxınlığında hərbi manevrləri çox önəmlidir.**




Bütövlükdə bu təlimlər silahlı qüvvələrimizin işğal altındakı əraziləri qısa zamanda azad edib, ərazi bütövlüyümüzü təmin eləməyə qadir olduğunun nümayişinə çevrildi. Təsadüfi deyil ki, Azərbaycanın getdikcə intensivləşən və daha keyfiyyətli və çoxşaxəli xarakter daşıyan hərbi təlimləri işğalçı tərəfdə dərin narahatlıq doğurmaqdadır. Son təlimlərlə bağlı erməni KİV-də gedən şərh və yazılardan, Ermənistan XİN-in reaksiyasından belə bir qənaətə gəlmək olar.

Diqqətçəkicidir ki, son təlimlərdə, döyüş atışlı mərhələnin yekununda hərbi qulluqçular qarşısında çıxış edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərin əhəmiyyətini qeyd edərək qoşunların peşəkarlığını və şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib...

*****

Bütün bunlar əlbəttə ki, ilk növbədə işğalçı Ermənistana aydın bir mesajdır ki, atəşkəs rejimini, status-kvonu sonsuzadək uzatmaq, sülh danışıqlarını dalanda saxlayıb vaxt qazanmaq daha mümkün olmayacaq. Bu, İrəvana Bakının növbəti xəbərdarlığıdır ki, Azərbaycan heç vaxt torpaqlarının işğalı ilə barışmayacaq, sülhdən qaçan müharibəyə tuş gələcək.

Azərbaycan əlbəttə ki, sülhpərvər dövlət olaraq, müharibənin yox, öz qanuni ərazilərinin dinc, danışıqlar yolu ilə qaytarılmasının tərəfdarıdır. Lakin "hərb, yoxsa sülh" seçimi sırf bizim istəyimizə bağlı məsələ də deyil. İşğalçı Ermənistanın, hələ də Qarabağdakı mifik "hərbi qələbə"nin eyforiyasından çıxa bilməyən erməni xalqının edəcəyi seçim, problemdir.

"Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir". Bu sözləri Azərbaycan prezidenti İlham Əliyev srağagün Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında açdığı iftar süfrəsində deyib. "Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq", - deyən dövlət başçısı Cocuq Mərcanlı kəndinin və orada Şuşa məscidinin bənzərinin inşa olunmasının xalqımızın əyilməz ruhunu təcəssüm etdirdiyini bildirib.

*****

Ən önəmlisi də əslində budur - Azərbaycan xalqının öz ərazilərini qaytarmaq əzmi və iradəsinin güclü olması, ordumuzun hər an torpaqları azad eləməyə hazır olması. Son hərbi təlimlər, o sırada NATO üzvü qardaş Türkiyə ilə vaxtaşırı həyata keçirilən ortaq hərbi manevrlər, habelə Azərbaycanın öz yerli hərbi sənaye kompleksini durmadan inkişaf etdirməsi, özünün silah arsenalını daim təkmilləşdirməsi müstəsna olaraq, bu hədəfə hesablanıb.

Təəssüf ki, Ermənistanın yeni rəhbərliyi də Qarabağ məsələsində öz xalqının deyil, hakimiyyətin maraqlarını üstün tutan kursa üstünlük verir. Vaxtı uzatmağın işğalçı tərəfin xeyrinə olduğunu düşünür. Azərbaycan sözsüz ki, İrəvanın bu siyasətini sonsuzadək müşahidə eləmək, ermənilərin hakimiyyət uğrunda didişməsini, bu didişməni bəhanə edib sülh danışıqlarından yayınmaq taktikasını əbədi seyr etmək niyyətində deyil.

Əksər analitiklərin qeyd elədikləri kimi, hərbi əməliyyatlar üçün əlverişli fürsət yaranan kimi, ordumuz şəkk-şübhəsiz, hərəkətə keçəcək. Bu fürsəti Qarabağdakı separatçı rejimlə, daha dəqiqi, hakimiyyətdən salınmış Qarabağ klanı ilə Ermənistandakı Nikol Paşinyan iqtidarı arasında son günlər kəskinləşən ziddiyyətlər daha da yaxınlaşdıra bilər.

*****

Maraqlıdır ki, bu fonda Ermənistanın müdafiə naziri David Tonyan gülüş doğuracaq bəyanatla çıxış edib. Azərbaycan ordusunun insan resursu və texnika baxımından üstünlüyünü etiraf edən Tonoyan, Ermənistanın "İsrail modeli" formalaşdırmaq niyyətində olduğunu bildirib. Onun fikrincə, Ermənistan ordunun döyüş hazırlığını yüksəltmək, onu ən müasir silahlarla təchiz etməklə belə bir model yarada bilər.

Sual yaranır: kasad və dəlmə-deşik büdcəyə, inkişafdan qalmış iqtisadiyyata malik Ermənistan Cənubi Qafqazın İsrailinə necə çevrilə bilər? Ordusuna düz-əməlli çağırışçı tapa bilməyən işğalçı ölkənin elmi potensialı necə, buna imkan verirmi?

**"Ermənistanın hərbi rəhbərliyinin bu bəyanatı cəfəngiyyatdır". "Yeni Müsavat"ın məlumatına görə, bunu Moderator.az-a Azərbaycanın sabiq XİN rəhbəri, politoloq Tofiq Zülfüqarov deyib.**

"İsrail modelinin əsas xüsusiyyətlərindən biri öz ordusunun hazırlıq səviyyəsindən başqa, ABŞ-ın böyük miqdarda köməyi ilə bağlıdır. Hərbi sahədə ABŞ-ın ən çox dəstəyini alan ölkə İsraildir. İsrail hər il ABŞ-dan böyük miqdarda kömək alır. Ermənistan müdafiə nazirinin bu açıqlaması təbliğat xarakterli bir çıxışdır. Çünki onlar danışmağa başqa söz tapmırlar. 2016-cı ilin aprel döyüşləri erməni ordusunun hərbi hazırlıq səviyyəsinin hansı vəziyyətdə olduğunu göstərdi. Bu məsələdə ikimənalı rəy ola bilməz. Ona görə də mən belə bəyanatları ciddi qəbul etmirəm".

*****

Məsələ də ondadır ki, Rusiyanın faktiki ucqar və geridə qalmış quberniyası statusunda olan, sürətlə boşalmaqda olan Ermənistanın yeni rəhbərliyi də hərbi və iqtisadi inkişafla bağlı bəzəkli arzular qurur, daha betəri, arzuları reallıq kimi qələmə verməyə çalışır. Bununla da öz xalqını sələfləri kimi aldatmağa səy edir. Halbuki dəyişməyən sərt reallıqlar rəsmi İrəvanı silahlanma barədə deyil, ən əvvəl öz iqtisadiyyatını böhrandan, özünü blokadadan necə çıxarmaq barədə düşünməyə vadar etməlidir. Yolu çoxdan məlum: yad torpaqların işğalına son qoyub iki əsas qonşu - Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdırmaq...



# ABŞ vətəndaşı XİN-in "qara siyahısı"ndan çıxarıldı

**ABŞ vətəndaşı Robert Qiş Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib.**

Xarici İşlər Nazirliyindən (XİN) Musavat.com-a verilən məlumata görə, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bildirən Robert Qiş müraciətində səfərin nəticələri barədə məlumatsız olduğunu qeyd edib. Habelə, o, işğal olunmuş ərazilərimizə gələcəkdə bu cür qanunsuz səfərlərdən çəkinəcəyini bildirib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

YENİ MÜSAVAT
N 113 (7283) 25 may 2019

# Qarabağ qaziləri pensiyalarının azalmasına etiraz edirlər

## Nazirlik: "Prezident təqaüdləri artırıldığına görə pensiyalara edilən 11 manatlıq əlavə dayandırılıb"

**Məlumat verdiyimiz kimi, ölkə prezidentinin fərmanı ilə Qarabağ qazilərinə verilən prezident təqaüdləri artırılıb, Qarabağ müharibəsi iştirakçılarına kommunal xidmətlərə görə ödənilən müavinət ləğv edilərək, əvəzində onlara 80 manat həcmində prezxident təqaüdü təsis olunub.**

Artımlar və yeni təqaüd bu il aprelin 1-dən hesablanmağa başlayıb. Lakin Qarabağ qaziləri təqaüd artımını, müharibə veteranları isə prezident təqaüdünü bu aydan almağa başlayıblar. Pensiyalar verilməyə başladıqda məlum olub ki, Qarabağ qaziləri üçün kommunal xidmətlərə görə müəyyənləşdirilmiş aylıq 11 manat müavinət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ləğv edilib. Bu isə Qarabağ qaziləri tərəfindən etirazla qarşılanıb. Redaksiyamıza onlar tərəfindən çoxsaylı müraciətlər daxil olur, sosial şəbəkələrdə yüzlərlə şəxsin etirazı yer alır.

**Məsələ ilə bağlı "Yeni Müsavat"ın sorğusuna cavab olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, müharibə əlillərinin əlilliyə görə əmək pensiyasına "Əmək pensiyaları haqqında" AR Qanununun 19.1.6-cı maddəsinə əsasən (hazırda qüvvədən düşüb), eləcə də döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara 11 manat məbləğində əlavə hesablanmışdı:** "Artıq bildiyiniz kimi, müharibə veteranları üçün



aprelin 1-dən aylıq 80 manat təqaüd təsis edildi, ona görə də qanunun tələbi ilə həmin 11 manat dayandırıldı. Yeni vətəndaş bundan 7,5 dəfə çox vəsaitlə təmin edilir. Eyni zamanda aprelin 1-dən I dərəcə müharibə əlillərinin təqaüdü 182 manatdan 250 manata, II dərəcə müharibə əlillərinin təqaüdü 158 manatdan 230 manata, III dərəcə müharibə əlillərinin təqaüdü 121 manatdan 210 manata çatdırıldı. Buna görə onların da əmək pensiyasına vaxtilə əlavə olunmuş 11 manat dayandırılıb. May ayında pensiyalar verilərkən həm aprel, həm da may ayı üçün həmin 11 manat dayandırılsa da (cəmi 22 manat), əvəzində iki ayın birgə artımı bundan dəfələrlə çoxdur. Yəni tutaq ki, II dərəcə müharibə əlilinin əmək pensiyasından aprel-may ayları üzrə 22 manat kəsilir, lakin bu iki ay üzrə onun aldığı təqaüddə (158 manatdan 230 manata çatdırılıb) 144 manat (72+72) artım özünü göstərir. Sadəcə olaraq, pensiyalar adətən təqaüdlərdən daha əvvəl ödənildiyi üçün vətəndaş pensiyasını alarkən hələ ki həmin o 22 manat azalmanı görür. Lakin təqaüdünü alarkən bundan dəfələrlə çox artımı da alacaq".

**Qarabağ Qaziləri Birliyinin İdarə Heyətinin üzvü Rey Kərimoğlunun sözlərinə görə, ölkə prezidentinin imzaladığı fərmanda Qarabağ qaziləri üçün ödənilən 11 manat kommunal xidmət müavinətinin ləğvi ilə bağlı müddəa yoxdur:** "Bu məsələyə görə Qarabağ qaziləri arasında ciddi narazılıq var, xüsusilə rayonlarda olan döyüşçülər kəskin etiraz edirlər. Biz hələ prezident fərmanı imzalanandan az sonra bununla bağlı məlumat almışdıq. Bütün qazi və şəhid ailələrinin birlikləri müraciət etdik Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə. Bizi nazirliyə dəvət etdilər, nazirin müşaviri Mustafa Abbasbəyli ilə görüşdük. İlk olaraq, nazirliyin bəzi vəzifəli şəxsləri bildirdilər ki, qazilərə kommunal xidmətlərdən istifadəyə görə təyin olunan 11 manat əlavəyə toxunulmayacaq. Görüşdə maraqlı müzakirələr apardıq, onlar məsələni araşdırmaq üçün bizdən vaxt istədilər. Sonradan zəng vurub dedilər ki, bəli, doğrudan da 11 manatlıq əlavə ləğv olunur. Amma məsələ burasındadır ki, prezident fərmanında həmin əlavənin Qarabağ müharibəsi veteranları üçün ləğv olunması qeyd edilib - əvəzində onlara prezident təqaüdü təyin olunub. Qarabağ qazisinə bunu niyə şamil edirlər, anlaşılmır. Bu, qanunsuzluqdur. Biz bunu pisləyirik, hesab edirik ki, bu qanunsuzluq aradan qaldırılmalıdır. Prezident Qarabağ qazilərinin təqaüdünü artırıb, amma deməyib ki, əvəzində kommunal xidmətlərə görə olan əlavəni ləğv edin".

**R.Kərimoğlunun sözlərinə görə, Qarabağ qaziləri və şəhid ailələri ictimai birliklərinin nümayəndələri ilə ƏƏSMN rəsmiləri arasındakı görüşdə nazirliyə təkliflər təqdim olunub:** "Müharibə əlilləri, şəhid ailələri, veteran birlikləri adından onlara 35-ə yaxın təklif təqdim etdik. Həmin təkliflər Qarabağ qazilərinin, şəhid ailələri və digər həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Görüşdə və ondan sonra bizə verilən məlumatlara görə təkliflərimizin xeyli hissəsi hökumət tərəfindən qəbul olunub. İnanırıq ki, bu məlumatlar reallığa çevriləcək və Qarabağ qazilərinin, şəhid ailələrinin, veteranların sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm addımlar atılacaq. Biz bu addımları gözləyirik".

**❑ DÜNYA, "Yeni Müsavat"**

# Bayıl yamacındakı evlər sökülür

## Sakinlər kompensasiyanın miqdarından narazılıq edirlər





**Bayıl yamacı, sürüşmə zonasında yaşayan sakinlərin köçürülməsi ilə bağlı qərar verilib.**

Bu barədə "Yeni Müsavat"a sakinlərin özləri məlumat veriblər. Sakinlər bildiriblər ki, artıq məsələ ilə bağlı Nazirlər Kabinetinin qərarı, Səbayel rayon icra başçısının müvafiq sərəncamı da var. Sakinlər bildiriblər ki, əraziyə baxan mənzil istismar sahəsinin əməkdaşları onlara sərəncamı da göstəriblər. Bildirilib ki, Nazirlər Kabinetinin qərarı ilə Bayıl yamacındakı sürüşmə zonasında yaşayan sakinlərin köçürülməsi üçün 8 milyon 920 min manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu vəsaitə ərazidə parkın salınması və digər abadlıq işləri də daxildir. Sakinlərə konkret olaraq hər kvadrat üçün nə qədər kompensasiyanın veriləcəyi rəsmi şəkildə açıqlanmayıb. Ancaq onlara şifahi şəkildə deyilib ki, kompensasiya mənzillərin hər kvadratı üçün 1000 manat, zirzəmi və açıq eyvanların kvadratına görə isə 200 manat nəzərdə tutulub. Bu, bir çox sakinlərin narazılıqlarına səbəb olub. Nəticə etibarilə mayın 23-də bir qrup sakin Səbayel Rayon İcra Hakimiyyətinə gedərək, məbləğin artırılmasını tələb ediblər. Sakinlərin bir qismi bildiriblər ki, əgər ən azı hər kvadrat üçün 1500 manat kompensasiya verilməsə, evlərini tərk etməyəcəklər.

Onlara bildirilib ki, hələ kompensasiyanın miqdarı dəqiqləşməyib. Hesablama işləri aparılır.

Bildirək ki, ərazidə yaşayan 92 ailədən 27-si məcburi köçkün ailəsidir. Mart ayında məcburi köçkün ailələrinə bildirilmişdi ki, onlara məcburi köçkünlər üçün tikilən binalardan ev veriləcək. 27 məcburi köçkün ailəsi bununla razılaşmayıb, etiraz aksiyası keçirdilər.

**Sakin Yaqub İbrahimov "Yeni Müsavat"a bildirib ki, hazırda məcburi köçkün ailələrinin də digər sakinlər kimi köçürülməsi planlaşdırılır:** "O məsələ artıq həllini tapıb. Hesablama aparıb, 27 ailəyə də digərləri kimi kompensasiya veriləcək. Yəni bizə belə məlumat veriblər. Camaatın bir qismi, eləcə də mən 1000 manat kompensasiya ilə razı deyiləm. Çünki həmin pulla bu ərazidən heç bir mənzil almaq mümkün deyil. Bayılda təmirsiz evin kvadratı 1000 manatdan bahadır. Bəs biz bu pulla necə ev alaq? Heç olmasa 1500 manat verilsəydi, yenə də nə isə etmək olardı. "Sovetski"də də camaata 1500 manat verdilər. Bizə nə üçün aşağı məbləğ verilir?"

Yada salaq ki, Bayıl ərazisindəki "Teleqüllə" yaxınlığında olan sürüşmə səbəbindən ərazidə məskunlaşan 98 ailə 2018-ci ilin yanvar ayından etibarən 11 aylıq müddətə kirayə mənzillərə köçürülüb. Sakinlər bildiriblər ki, verilən kirayə pulu az olduğu üçün Bayıl ərazisində ev tapmaqda çətinlik çəkiblər. Ona görə də məcbur qalıb ya kənar ərazilərdə ev tutublar, ya da öz evlərinə geri dönüblər. Yanvar ayında köçürülmə prosesi ləngidiyi üçün kirayə pulunun verilməsi yenidən mart ayına qədər uzadılmışdı. Kirayə pulunun məbləğinə gəlincə isə qeyd edək ki, normativlərə uyğun olaraq, ailə tərkibi 1-5 nəfər arası olanlara 200 manat, 6-7 nəfər olanlara 250 manat, 8-dən çox olanlara isə 300 manat müəyyən olunub. Həmin əraziyə işıq, qaz və digər kommunal xidmətlər müvəqqəti dayandırılıb. Hazırda da əksər evlərdə kommunal xidmətlərin verilişi bərpa olunmayıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərazidə sürüşmənin aktivləşməsi ilə bağlı son zamanlar heç bir məlumat yaymayıb. Bildirilib ki, ərazidə vəziyyət stabil olaraq qalmaqdadır.

"Sovetski"dən söz düşmüşkən, qeyd edək ki, hazırda bu məhəllənin də köçürülməsi planlaşdırılan sakinləri kompensasiyadan narazıdırlar. Narazı sakinlər ötən həftə aksiya da keçirdilər. Sakinlər bildirirlər ki, verilən 1500 manat kompensasiya ilə heç bir mənzil ala bilmirlər. Çünki həmin ərazidə evlərin əksəriyyəti azkvadratlıdır. Ona görə də ümumi məbləğ aşağı olur. Hələ ki "Sovetski"də problem öz həllini tapmayıb. Lakin Bakı şəhər icra başçısı Eldar Əzizov jurnalistlərə açıqlamasında bildirib ki, "Sovetski" ilə bağlı yeni planlar hazırlanır. Bu planlarla bağlı ictimaiyyətə açıqlama verilməyib.

**❑ Əli RAİS, "Yeni Müsavat"**

**İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, internet şəbəkəsinin əhatə dairəsinin və sürətinin artması dünyanı yalan xəbərlər - "fake news" axını ilə üz-üzə qoyub. Sosial şəbəkələrin informasiya daşıyıcılığında önə keçdiyi indiki mərhələdə bu axın getdikcə güclənməkdə, dövlətlərin, insanların həyatına daha sürətlə daxil olmaqdadır.**

# Yalan xəbərlə mübarizə mümkündürmü?

## Ekspert: "Bu gün dünya informasiya məkanında yayılan məlumatların 40-60 faizi yalan xəbərlərdir"

Müasir dünyamızda sıravi insanlardan tutmuş, dövlət rəhbərlərinə qədər - çox geniş təbəqələr yalan xəbərlərdən əziyyət çəkməkdədir. ABŞ kimi dünya nəhənginin prezidenti Donald Tramp böyük media orqanlarının yalançılığından gileylənirsə, sadə Azərbaycan vətəndaşı sosial şəbəkə istifadəçilərinin, ardınca isə İnternet xəbər resurslarının yaydıqları yalanların problemini yaşayır.

Qeyd edək ki, son 3-4 ildə müxtəlif internet platformaları tərəfindən yalan məlumatların yayılmasının qarşısının alınması üçün çoxsaylı tədbirlərə əl atılıb. Bu proses 2016-cı ildə ABŞ-da keçirilən president seçkilərindən sonra daha aktiv xarakter alıb. Facebook, Google kimi nəhəng istifadəçi ordusu olan platformalar indinin özündə də yalan məlumatların yayılmasına qarşı mübarizə məqsədilə yeni-yeni proqramlar tətbiq etməkdədirlər. Lakin bu addımların effektiv nəticə verdiyini söyləmək mümkün deyil, şəbəkə istifadəçiləri saxta xəbərləri yaymaq üçün hər dəfə yeni üsullardan istifadə edirlər.

**Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərlinin "Yeni Müsavat"a dediyinə görə, yalan xəbər hazırkı dünyanın ən böyük problemlərindən biridir:** "Feyknyus bu gün qlobal bir problemə çevrilib. Dünyanın hər yerində tüğyan edən prosesdir. Beynəlxalq media klublarının monitorinqi göstərib ki, bu gün inkişaf etmiş ölkələrdə sosial şəbəkələr üzərindən yayılan yalan xəbərlərin həcmi ümumu xəbərlərin 40 faizinə, inkişaf etməkdə olan ölkələrdə isə 60 faizinə bərabərdir. Yəni Avropa və ABŞ-da sosial şəbəkələr üzərindən yayılan məlumatların 40 faizi reallığı əks etdirmir. İndi görün, dünya yalan xəbərlərdən nə qədər böyük əziyyət çəkir".

**Yalan xəbərlə mübarizə hazırda bütün beynəlxalq təşkilatların gündəmindədir. M.Ələsgərli bildirir ki, BMT-dən tutmuş, ATƏT, Avropa Şurasının müxtəlif formatlarda təşkil etdikləri müzakirələrdə bu məsələ ciddi şəkildə qoyulur:** "Çox təəssüf ki, indiyədək elə bir model tapılmayıb ki, onu tətbiq etməklə yalan xəbərlərin yayılmasının qarşısı əhəmiyyətli şəkildə alına bilsin. Buna görə də müzakirələrin sonunda adətən ölkələrin özlərinə müraciət olunur ki, yalan xəbərlərlə mübarizədə hər kəs bacardığı vasitələri tətbiq etsin. Bu zaman əsas tövsiyə budur ki, həyata keçiriləcək tədbirlər ifadə azadlığını məhdudlaşdırmasın, amma mübarizə də aparılmalıdır".

**JuHİ rəhbərini sözlərinə görə, yalan xəbərlə mübarizədə 3 variant üzərində daha çox dayanılır:** "Bunlardan birincisi, qanunvericliyə məhdudlaşdırıcı müddəaların daxil edilməsidir. Lakin bəzi ölkələrin bu sahədə atdığı addımlardan sonra bu variant məqbul hesab olunmamağa başlayıb. Belə ki, bir sıra ölkələrdə hazırlanan qanunverici bazanın analizi göstərib ki, tətbiq olunan sərt müddəalar insanların ifadə azadlığını kəskin şəkildə məhdudlaşdıracaq. Məsələn, Rusiyada hələ qəbul olunmasa da, sərt tədbirlərin əksini tapdığı layihə hazırlanıb. Buna görə də qanunvericiliyin sərtləşdirilməsi o qədər də məqbul sayılmır. İkinci mübarizə üsulu maarifləndirmə hesab olunur. Bir sıra Avropa ölkələrində orta məktəblərdə şagirdlərə informasiya ilə işləmək bacarıqları öyrədilir. Çox təəssüf ki, bu məsələdə Azərbaycan xeyli geridə qalır, ümid edirik ki, tezliklə xəbər nədir, yalan və doğru xəbəri necə ayırd etmək və sair istiqamətlərdə maarifləndirmə tədbirlərinə başlanacaq. Nəhayət, üçüncü variant - cəmiyyətin informasiya təminatında ənənəvi medianın əvvəlki aparıcı rolunun bərpa olunmasıdır. Hesab olunur ki, informasiya istehsalı ilə peşəkarların məşğul olmasına şərait yaradılmalıdır. Belə ki, sosial şəbəkələrin genişlənməsi, populyarlaşması nəticəsində ənənəvi media dərin tənəzzülə məruz qalıb - reklam bazarı və gəlir mənbələrindən məhrum olub. Amma indi dünyada əks proses gedir. İnkişaf etmiş ölkələrdə belə qərara gəliblər ki, xəbərin yalnız peşəkar informasiya mütəxəssisləri tərəfindən istehsalına şərait yaratmaq üçün ənənəvi mediaya dəstək verilməlidir. Bu məqsədlə yeni kampaniya başladılıb. Bu yaxınlarda beynəlxalq jurnalist təşkilatları Avropada xüsusi kampaniyaya başladılar. Bilirsiniz ki, bu il Avropa Parlamentinə seçkilər keçiriləcək. Jurnalist təşkilatları Avropa Parlamentinə namizədlərdən peşəkar medianın inkişafına dəstək məsələsini öz platformalarına salmaları xahiş olundu. Eyni zamanda Avropa dövlətlərinə müraciət olundu ki, ənənəvi medianın inkişafına dəstək versinlər, xüsusi proqramlar həyata keçirsinlər".




**M.Ələsgərli hesab edir ki, yalan xəbərlə əsas mübarizə peşəkar medianın inkişafı və yenidən xəbər məkanında aparıcı rolunu bərpa etməsinə yönəlməlidir:** "Bu gün peşəkar media ciddi maddi problemlər yaşayır. Sosial medianın inkişafı peşəkar media orqanlarını reklam gəlirlərindən məhrum edib. Buna görə də beynəlxalq media təşkilatlarının dövlətlərə ünvanlanan müraciətində peşəkar medianın inkişafına yönəlik proqramların hazırlanaraq həyata keçirilməsi tövsiyə olunur".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

# Qaradağın icra başçısı məscidin hasarlarını sökdürdü

## İH rəsmiləri sökülmə ilə bağlı icmaya hər hansı bir rəsmi sənəd təqdim etməyiblər





**Qaradağ rayonundakı Ümid qəsəbəsində yerləşən məscidin ərazisi alınıb. Bu barədə məscidin icmasından "Yeni Müsavat"a məlumat verilib. Bildirilir ki, rayon icra başçısının göstərişi əsasında mayın 23-də əraziyə gələn İH əməkdaşları məscidin həyətyanı ərazisinin hasarını söküb. Söküntü prosesində icra başçısının müavini və arxitektor iştirak edib.**

İH rəsmiləri sökülmə ilə bağlı icmaya hər hansı bir rəsmi sənəd təqdim etməyiblər. Bildirilir ki, bir neçə gün əvvəl əraziyə gələn rayonun icra başçısı məscidin ərazisinin geniş olduğunu, bu qədər ərazinin məscid üçün çox olduğunu deyərək əməkdaşlara ərazini kiçiltməyi göstəriş verib.

İcma sədri Ramin Həsənli "Yeni Müsavat"a bildirdi ki, "Qarabağ şəhidləri" adı verilmiş məscid Ümid qəsəbəsində 2000-ci ildə inşa olunub. 2009-cu ildə isə məscidin icması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyata alınıb və rəsmi status alıb.

İcma sədri deyir ki, 2012-ci ildə məscidin ərazisi qəsəbə bələdiyyəsi tərəfindən təsdiqlənib və 120 metr uzunluğu və 120 metr eni olmaqla ümumilikdə 1,44 hektar ərazi məscidə verilib. 2014-cü ildən isə məscid QMİ-nin balansına daxil olub. 2014-cü ildən sonra məscidin həyəti hasarlanıb və məscid yardımçı binalarla birlikdə icmanın balansında olub.

Qeyd edək ki, analoji daha bir hadisə Yeni Günəşli qəsəbəsi "Fatimeyi Zəhra" məscidi ilə bağlı yaşanıb. Hakimiyyət orqanları məscidin ərazisinin böyük olduğunu əsas gətirərək bir qismini alıblar. Ancaq Yeni Günəşlidən fərqli olaraq Ümid qəsəbəsi mərkəz hesab olunmur, icra hakimiyyətinin qəsəbə məscidinin ərazisinin kiçiltmək qərarının səbəbi anlaşılan deyil.

❑ Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"

# "Zelenski bic adamdır..."

## Hikmət Hacızadə: "Ukrayna üçün nikbinəm, orada xalqın varlığını görürəm"

**Ukraynanın yeni prezidenti Vladimir Zelenskiyə "Yeni Başlayanlar üçün Siyasət" adlı uşaq kitabı hədiyyə edilib. Hədiyyə yeni prezidentə Kiyevdə qatıldığı kitab sərgisində verilib. Zelenski hədiyyədən narahat olmayıb, məmnunluq hissi ilə kitabı qəbul edib və gülümsəyərək zarafatla cavab verib.**



Hələ ki idarəçilik təcrübəsi olmayan gənc prezident belə hadisələrlə diqqət mərkəzinə gəlir. O, keçmiş televiziya həmkarlarını yanına toplayır, populist çıxışlar edir, şou xarakterli addımlar atır.

Bəzi analitiklərin fikrincə, Ukraynada "dərin dövlət" var və ölkəni pərdəarxasında Zelenskini iqtidara gətirən oliqarx İqor Kolomovski və daxili işlər naziri Arsen Avakov idarə edir.

Şoumen prezidentin Rusiya siyasətində də xüsusi fəaliyyət planı yoxdur. Təbii ki, ona möhlət verilməlidir və ən əsası parlament seçkilərindən sonra Ukraynada nələrin dəyişəcəyi bilinəcək.

**Politoloq Hikmət Hacızadənin "Yeni Müsavat"a bildirdiyinə görə, Zelenskinin zəif fiqur olması haqda fikrə gəlmək doğru deyil:** "Çünki o, tək deyil və yan-yörəsində çox güclü adamlar, oliqarxlar var. Ən əsası Kolomovski onun arxasındadır. Kolomovskinin arxasında isə İsrail dayanıb. İsrailin arxasında isə Qərb var".

**Analitikin fikrincə, Ukrayna artıq demokratik dövlətdir:** "Bu ölkədə daha kimsə avtoritarlıq edə, xalqı əzə bilməz. Yəni pis - yaxşı parlament var, etiraz edən bir xalq var. Yəni Ukrayna demokratiya yolunda relsə düşmüş ölkədir.

Hətta Ukraynada rəhbər qəfil xəstələnsə belə, sülh yolu ilə proseslər həllini tapacaq, yeni prezident seçiləcək. Bu mənada Ukraynanın gələcəyi ilə bağlı çox optimistəm".

**H.Hacızadə Kolomovski və Avakov kimi güclü fiqurların Ukraynanın idarəçiliyində təsirini istisna etmir. Onun fikrincə, bundan sonra Zelenski islahatlar aparacaq.**

"Zelenski bic adamdır. O, Poroşenkoya baxanda yumşaq görünür. Yəni bağıra-bağıra müharibə edəcəyini demir. Eyni zamanda Ukrayna dilinin rusdilli regionlarda yayılmasını zorla tətbiq etmir. Əksinə, bu məcburiyyəti tətbiq edən qanuna təzədən baxacağını söyləyib və o təbəqəni sakitləşdirib. Bu ölkədə rusdillilər əhalinin yarısıdır, Ukrayna dilində bilmirlər. Bir tərəfdən də Zelenski yəhudidir və ifrat milliyyətçi deyil. Bu da ona imkan verir ki, aqressiv siyasət aparmasın. İndi çoxları dilə gətirmir, amma Zelenski seçkidə rusdillilərin səsini aldı. Ukraynada partiyalar işləyir, plüralizm var, inkişaf gedir" - deyə ekspert qeyd etdi.

**Onun sözlərinə görə, bu müddətdə oliqarxlarla mübarizə gedəcək:** "Poroşenko korrupsiyaya yol verib, dağıdıb. Ola bilər ki, Zelenski ona cinayət işi açılmasında tələsib. Amma Poroşenko da dinc durmayıb. Ümumiyyətlə, hər bir inqilabda belə dövrlər olur və Ukrayna üçün nikbinəm, orada xalqın varlığını görürəm".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# Adımızı uca edən soydaşlarımız

## "Yeni Müsavat" müxtəlif ölkələrdə uğur tarixi yazan alimlərimizi təqdim edir

**Bu gün dünyanın ən müxtəlif ölkələrində yaşayan azərbaycanlıya rast gəlmək mümkündür. SSRİ-nin mövcud olduğu son illərdə, həmçinin ölkə müstəqillik əldə etdikdən sonra soydaşlarımızın xarici ölkələrə çıxışı sərbəstləşib. Dünyanın müxtəlif guşələrinə gedən azərbaycanlılar arasında yaşadıqları ölkədə böyük elmi nailiyyətlər əldə edənləri az deyil. Bu yazımızda onlardan bir neçəsi barədə qısa da olsa məlumatı oxuculara təqdim edirik.**


Pərviz Əmiraslanov


Anar Əhmədov


Elmar Nurməmmədov


Məsud Aşina


Aygün Attar


Əfəndiyev Məsud

### Alman maşınının azərbaycanlı mühəndisi

Söhbət texnika elmləri doktoru Pərviz Əmiraslanovdan gedir. O, Almaniya Mühəndislər Birliyinin həqiqi üzvüdür. 70-dən çox elmi və metodik işi var, 5 patent alıb.

Əmiraslanov Pərviz Arzuman oğlu 1971-ci il iyulun 28-də Tovuz rayonunun Sarıtala kəndində anadan olub. 1988-ci ildə Sarıtala kənd orta məktəbini, 1989-cu ildə Qovlar qəsəbəsindəki 98 nömrəli Orta Texniki Peşə Məktəbini bitirərək 1989-cu ildə Azərbaycan Texniki Universitetinin maşınqayırma fakültəsinə daxil olub. 1994-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirib və Azərbaycan Texniki Universitetinin Maşınqayırmada avtomatlaşdırılmış layihələndirmə kafedrasında tədqiqatçı-mühəndis kimi əmək fəaliyyətinə başlayıb. 1995-ci ilin oktyabrında həmin kafedrada laboratoriya müdiri vəzifəsinə təyin olunub. 1996-cı ildə Azərbaycan Texniki Universitetinin aspiranturasına daxil olub. İşlədiyi müddətdə universitet və respublika konfranslarında iştirak edib, məqalələri çap olunub. "Metalkəsən dəzgahların mexaniki ötürmə mexanizmlərinin avtomatlaşdırılmış layihələndirilməsi" adlı metodik vəsaitin (1997) və Azərbaycan dilində ilk dəfə olaraq "Maşınqayırmada riyazi modelləşdirmə" adlı kitabın (1998) müəllifidir.

1999-cu ildə Almaniya Federativ Respublikasına getdikdən sonra qazandığı təqaüd proqramı çərçivəsində Hannover şəhərində Lazer Mərkəzi və digər sənaye profilli elmi-tədqiqat işlərində əvvəl yardımçı, kiçik və daha sonra isə böyük elmi işçi işləyib. Bu işlərin elmi nəticələrinə əsasən Braunşvayq Texniki Universitetində elmi işçi olaraq işə götürülüb. 2001-ci ilin aprelində Braunşvayq Texniki Universitetinin maşınqayırma fakültəsində "Avtomobil hissələrində lazerlə pardaxlama prosesinin modelləşdirilməsi" mövzusunda dissertasiya müdafiə edərək doktor tituluna layiq görülüb. 2002-ci ilin mart ayında Braunşvayq Texniki Universitetinin təhsil şöbəsinin və Almaniya Aşağı Saksoniya əyalətinin Təhsil Nazirliyinin birgə qərarı ilə dosent olaraq dərs deməyə başlayıb. Dərs dediyi müddətdə dəfələrlə universitet tərəfindən müxtəlif diplomlara layiq görülüb. 2003-cü ilin dekabrından Almaniya Mühəndislər Birliyinin həqiqi üzvüdür.

Sənaye profilli elmi-tədqiqat işlərinə Almaniya Dövlət Patent İdarəsi tərəfindən yüksək dəyər verildiyi üçün "Siemens VDO Automotive AG" firmasının təklifi ilə 2005-ci ilin yanvarında firmada ali məktəblərlə elmi iş üzrə şöbənin rəisi vəzifəsinə işə götürülüb. Eyni zamanda Braunşvayq Texniki Universitetində mühazirə oxumaqda davam edib. 2007-ci ilin sentyabr ayından "DaimlerChrysler AG" (Mercedes) firmasında elmi tədqiqat və inkişaf departamentində qrup rəhbəri vəzifəsinə qəbul edilib. Burada üçillik əmək fəaliyyətindən sonra 2010-cu ildən etibarən Almaniyanın digər avtomobil şirkəti olan "Volkswagen AG" şirkətinin elmi-tədqiqat və texniki inkişaf idarəsində mütəxəssislər qrupunun rəhbəri olub. 2012-ci il yanvar ayından bu günə qədər isə həmin idarədə şöbə müdiri vəzifəsində çalışır. Onun rəhbərlik etdiyi şöbədə yeni avtomobillər üçün intellektual və innovativ texnologiyalar nəzəri cəhətdən araşdırılır və praktik sınaqdan keçirilir. Eyni zamanda Braunşvayq, Klausthal Texniki universitetlərində və Wolfenbüttel Ali Texniki Məktəbində saathesablı mühazirələr oxuyur və bu məktəblər üzrə işçi qupunun rəhbəridir.

### Minnesota Universitetinin professoru

ABŞ-ın Minnesota Universitetinin professoru olan Anar Əhmədov orta təhsilini Bakıda, Xətai rayonundakı 58 saylı orta məktəbdə alıb. 1996-cı ildə təhsil almaq üçün ABŞ-ın Kaliforniya ştatına gedib. Kaliforniya Dövlət Universitetində və Princeton Universitetində riyaziyyat ixtisası üzrə ali təhsil alıb.

2018-ci ilin martında Amerikanın "Simons " Fondu (The Simons Foundation) 2018-ci il üzrə ABŞ və Kanadanın nüfuzlu universitetlərində tədqiqatlar aparan 52 alimə təqaüd ayırıb. Onların arasında həmyerlimiz Anar Əhmədov da var. A.Əhmədov riyaziyyat və nəzəri fizika üzrə xüsusi təqaüdə (Simons Fellows in Mathematics and Theoretical Physics Announced) layiq görülən ilk azərbaycanlı alim-tədqiqatçıdır. Fond alimin kiçikhəcmli və simplektik topologiya üzrə tədqiqatlarını yüksək qiymətləndirib.

1994-cü ildən başlayaraq gənc tədqiqatçılara elmi ictimaiyyətin diqqətinə səbəb olmuş ciddi elmi işlərinə görə təqaüd ayıran fond onları elmi liderlərin gələcək nəsillərinin parlaq ulduzları kimi qiymətləndirir. Mükafatlar səkkiz elmi sahə - kimya, informatika, iqtisadiyyat, riyaziyyat, təkamül və hesablama molekulyar biologiyası, neyro-biologiyaya, fizika və okeanoqrafiya üzrə verilir. Namizədlər yaşlı alimlər qrupunun dəstəyini almalıdır. Təqaüdün həcmi 100. 000 ABŞ dollarıdır. Bu vəsait sonrakı tədqiqat üçün istifadə ediləcək.

Qeyd edək ki, Anar Əhmədov riyaziyyat və dəqiq elmlər üzrə professordur. O, riyaziyyat sahəsində elmi dərəcəni Kaliforniya Universitetində qazanıb. Həmçinin Vyana Universitetində, Kolumbiya Universitetində, Zürih Universiteti və Georgia Texnologiya İnstitutunda dərs deyib.

### Amerikada xərçəngə qarşı mübarizə

ABŞ-da uğur qazanan daha bir həmyerlimiz dr Elmar Nurməmmədovdur. Elmar Nurməmmədov 5 iyul 1979-cu ildə Qusar rayonunda anadan olub. 1993-cü ilə qədər Qusar rayonu 2 saylı orta məktəbdə, sonra isə Quba Özəl Türk Liseyində təhsil alıb. 1997-ci ildə liseyi müvəffəqiyyətlə bitirərək Türkiyənin ən güclü universiteti sayılan Orta Doğu Teknik Universitetinin Biologiya ixtisasına qəbul olur. O, 2001-ci ildə universiteti fərqlənmə ilə bitirir və İsveçdə Lund Universitetinin Dəqiq elmlər üzrə magistratura ixtisasına qəbul olur. İsveç İnstitutundan tam təqaüd almağa haqq qazanır. 2003-cü ildə MSc dərəcəsi əldə edərək magistraturanı bitirir. 2002-ci ilin payızından etibarən o bir neçə ay müddətinə Almaniyada Max Planck İnstitutunda çalışır.

2003-cü ilin fevral ayında E.Nurməmmədov Lund Universitetinin Molecular Biophysics kafedrasında PhD-yə başlayır. 4 il sonra o müvəffəqiyyətlə PhD dərəcəsi almağı bacarır. Bu illərdə bir neçə dəfə İsveç İnnovasiya Agentliyi tərəfindən tədqiqat zamanı gətirdiyi yeniliklərə görə mükafatlar alır.

2010-cu ilin yanvar ayında E.Nurməmmədov Bostona (Massachusetts, ABŞ) köçərək öz tədqiqatlarına Harvard Tibb Universitetində davam edir. Onun tədqiqatı talasemiya və anemiya kimi yeni nəsil genetik pozğunluqların terapevtikasına fokuslanıb.

Hazırda Dr Elmar Nurməmmədov ABŞ-da yerləşən Pacific Nevrologiya İnstitutunda və John Wayne Xərçəng İnstitutunda dərman ixtirası departamentinə rəhbərlik edir. Elmar həmkarları ilə birgə xərçəng xəstəliyinin müalicəsi üçün dərman axtarışındadır.

### Beynəlxalq cəmiyyətin azərbaycanlı rəhbəri

Danimarka Krallığında yaşayan azərbaycanlı alim, Kopenhagen Universitetinin nevrologiya üzrə professoru Məsud Aşina nevrologiya və baş ağrıları sahəsində tanınmış alimdir. Həmyerlimizin fəaliyyəti nəticəsində miqren xəstəliyinə səbəb olan amillərin tədqiqatı aparılıb. Bir çox vacib nailiyyətlər məhz Məsud Aşinanın adı ilə bağlıdır. Hazırda o, Kopenhagen Universitetinin baş ağrıları sahəsində fəaliyyət göstərən elmi qrupunun rəhbəri kimi fəaliyyət göstərir.

M.Aşina 1965-ci ildə Bakıda anadan olub. 20 saylı məktəbdə oxuyub. 1982-ci ildə Məsud Aşina Azərbaycan Dövlət Tibb İnstitutunun (hazırda Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olub və 1988-ci ildə oranı bitirib. Təcili Yardımda internatura keçib və 1989-cu ildə, o vaxt 16 yaşı olan qardaşı Səidlə birgə Danimarkaya köçüb.

Kopenhagendə yarımillik təkrar internaturadan sonra Məsud Aşina sıx surətdə elmlə məşğul olmağa başlayır. 2000-ci ildə PhD dərəcəsi üzrə dissertasiya müdafiə edir və 2003-cü ildə doktorluq dərəcəsi alır. 2006-cı ildə Kopenhagen Universiteti yanında nevrologiya üzrə assosiativ professor olur və universitet klinikasının bazasında işləməyə başlayır. 2014-cü ildə Danimarka Milli Hospitalı və Kopenhagen Universitetinin nevrologiya professoru adına layiq görülür. 2017-ci ildə Beynəlxalq Baş Ağrıları Cəmiyyətinin (International Headache Society) növbəti prezidenti seçilir. "Miqrenin patofiziologiyası" kitabının, beynəlxalq tibbi nəşrlərdə baş ağrıları və miqrenlə bağlı getmiş 400-dən çox məqalənin müəllifidir.

### Universitet rektoru, ermənilərə qarşı mübarizənin aktiv iştirakçısı

Aygün Attar 1962-ci ildə Qubadlı rayonunda anadan olub. 1986-cı ildə Bakı Dövlət Universitetini bitirib. 1993-cü ildə Rusiya Elmlər Akademiyasının Tarix İnstitutunda doktorluğu müdafiə edib.

Aygün xanım 1990-cı illərin ortalarından Türkiyədə yaşayır və Türkiyə vətəndaşıdır. 2007-ci ildə Türkiyənin tanınmış Girəsun Universitetində rektorun köməkçisi təyin olunub. 2010-2012-ci illərdə universitetdə fakültə dekanı, 2012-2016-cı illərdə isə rektor vəzifələrində çalışıb.

2014-cü ildə Oksford Universitetinin Sokrat mükafatına layiq görülüb.

Azərbaycan və Türkiyəyə qarşı erməni iddiaları, Orta Asiya, Qafqaz tarixi sahəsində elmi əsərlərin müəllifidir. Azərbaycan, rus, ingilis, fars və türk dillərini bilən A.Attar Türkiyədə Azərbaycana qarşı erməni işğalını ifşa edən, erməni lobbisinin Türkiyədə fəaliyyətinə qarşı yönəlmiş aktiv fəaliyyəti ilə tanınır.

### "Kiçik Nobel"li alim

Əfəndiyev Məsud - 1970-ci ildə Zaqatalada Şıxəli Qurbanov adına məktəbi qızıl medalla bitirib. Elə həmin il Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə qəbul olunub. Təhsilini M.V.Lomonosov adına Moskva Dövlət Universitetində davam etdirib. 1974-75-ci illərdə professorlar M.Vişkinin və A.Şnirelmanın rəhbərliyi altında diplom işi yazıb. Uğurla namizədlik, doktorluq dissertasiyalarını müdafiə edib. Alim Almaniyanın Münhen, Ştutqart, Berlin universitetlərində dərs deyib. Hazırda H.Helmholts adına Münhen Elmi-Tədqiqat Mərkəzində "Dinamik sistemlər" şöbəsinin müdiri və Münhen Universitetinin professorudur. 2005-ci ildə Yaponiyanın nüfuzlu "Japan Society for the Promotion of Science-JSPS" təşkilatının mükafatına layiq görülüb.

Dünya elmində ən yüksək təltiflərdən ("Kiçik Nobel" mükafatı) sayılan, Almaniya hökumətinin təsis etdiyi "Aleksandr fon Humboldt" mükafatının ilk azərbaycanlı laureatı kimi tarixə düşüb. Dünyanın ən nüfuzlu elmi jurnallarında 160-dan çox elmi məqaləsi dərc edilib, 5 monoqrafiyası Amerika, Almaniya, İsveçrə və Yaponiyada çap olunub. Dünyanın tanınmış jurnallarından biri "İnternational Journal of Biomathematics and Biostatistics"in baş redaktorudur.

❑ **Hazırladı: Dünya SAKİT, "Yeni Müsavat"**

# Gənclər üçün xaricdə təhsil şansı-şərtlər

## Ekspert Gənclər Fondunun müsabiqəsini şərh etdi

**Xəbər verdiyimiz kimi, Gənclər Fondu xaricdə təhsilin maliyyələşdirilməsi üzrə müsabiqə elan edib. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnamə"sində gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsili üçün maliyyələşdirilməsi fonda həvalə olunub. Bununla əlaqədar, mayın 24-dən etibarən Gənclər Fondu gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin maliyyələşdirilməsi üzrə müsabiqəyə start verir. Avropanın nüfuzlu ali təhsil müəssisələrində 74 ixtisas istiqaməti üzrə magistr pilləsinə qəbul olmuş gənclər fondun rəsmi internet səhifəsində qeydiyyatdan keçib, tələb olunan sənədləri onlayn qaydada təqdim etməklə müsabiqədə iştirak edə bilərlər.**




Həmçinin ABŞ və Böyük Britaniyanın ilk ali təhsil müəssisələrinin beynəlxalq reytinqində ilk 100-lükdə yer alan universitetlərdə magistr pilləsi üzrə təqaüd qazanmış gənclər də nəqliyyat və yaşayış xərclərinin qarşılanması ilə bağlı Gənclər Fonduna müraciət edə bilərlər.

Müraciətçilər üçün prioritet ixtisasların siyahısı, seçim meyarları, müraciətin forma və şərtləri, tələb olunan sənədlər, Gənclər Fondu tərəfindən qarşılanacaq xərclər barədə məlumatlar fondun saytında yer alıb.

Qeyd edək ki, Azərbaycanda dövlət tərəfindən keçirilən sonuncu proqram "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" oldu. Ondan sonra gənclərin xaricdə təhsili yalnız şəxsi mənbələr və xaricdən alınan təqaüdlər hesabına həyata keçirildi.

Gənclər Fondunun yenidən bu sahəyə diqqət ayırması ekspertlər tərəfindən də müsbət qiymətləndirilir.

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Gənclər Fondu seçim kriteriyalarını müəyyənləşdirməli və ixtisasların siyahısını verməlidir:** "Bundan başqa, magistratura pilləsinə hansı şərtlər daxilində bakalavr pilləsini bitirmiş Azərbaycan vətəndaşları qəbul olurlar məsələsi aydınlaşdırılmalıdır. Əvvəlcə biz bilirdik ki, bakalavr pilləsinə daxil olmaq üçün Dövlət İmtahan Mərkəzindəki keçid balı nəzərə alınırdı, xarici dil üzrə nüfuzlu proqramlardakı göstəricilər nəzərə alınırdı. Burada da Gənclər Fondu öz kriteriyalarını müəyyənləşdirməlidir".

**Ekspert onu da vurğuladı ki, seçimin ədalətli və obyektiv olması üçün QHT nümayəndələrinin də burada iştirakı çox vacibdir:** "Əgər ölkə başçısı bu missiyanı Gənclər Fondunun üzərinə qoyubsa, onlar bunu qapalı keçirə bilməz. Bu, insan kapitalının inkişafına xidmət göstərən addımdır. Prosesin daha şəffaf və obyektiv aparılması üçün seçimdə ictimaiyyət nümayəndələrinin iştirakı vacibdir. Ölkə üçün əsasən təbiət elmləri, kənd təsərrüfatı istiqamətində, İKT sahəsində, dünyada çox geniş tədqiqatları özündə cəmləşdirən molekulyar biologiya, tətbiqi fizika istiqamətində magistraturaya tələbələrin göndərilməsi ölkə üçün çox vacibdir. İxtisas seçimi də çox mühüm rol oynayır, bu məsələdə rasional yanaşma vacibdir. Ölkədə elmi tədqiqatların aparılması və genişlənməsi üçün hansı ixtisaslar üzrə alim yetişdirməyin vacib olduğunu onlar elan etməlidirlər. Bundan sonra proses maksimum şəffaf keçirilməlidir. İndiki dövrdə bizim xaricdə elmi dərəcələr alıb bölgəyə qayıdan, elmi və ya pedaqoji fəaliyyətlə məşğul olan insanlara çox böyük ehtiyacımız var. Proses şəffaf keçirilərsə, bu işə olan tələbatın yerinə yetirilməsi üçün hər hansı irəliləyiş ola bilər".

**Xaricdə təhsil proqramlarının vacibliyini vurğulayan Etibar Əliyev bildirdi ki, bu sahədə Qazaxıstan təcrübəsi daha uğurludur və hazırda bu ölkə onun bəhrəsini yaşamaqdadır:** "Qazaxıstanda 1992-ci ildən minlərlə gənc dünyanın müxtəlif ölkələrindəki universitetlərə bakalavr və magistr pilləsində təhsil almaq üçün göndərildi. Bu da öz nəticəsini verib, Qazaxıstanda hazırda reytinq cədvəllərində yer alan xeyli universitetlər meydana gəlib, orta təhsilin səviyyəsi yüksəlib. Elmi tədqiqatların əhatə dairəsi genişlənib. Bu xaricdəki təhsillə bağlıdır. Bizdə xarici ölkələrin tanınmış universitetlərinə tələbələrin göndərilməsi proqramını bərpa etmək lazımdır. Çünki bizim universitetlərin kadr hazırlığı indiki informasiya cəmiyyəti üçün yetərli deyil. Ona görə də bu proqramın bakalavr istiqamətində də davamı ölkə üçün mühüm əhəmiyyət kəsb edə bilər. Əgər biz qarşıya insan kapitalının inkişafını məqsəd kimi qoymuşuqsa, mütləq dünyanın inkişaf etmiş ölkələrindəki universitetlərdə bakalavr və magistr pilləsində tələbələrin sayını artırmalıyıq. Əks təqdirdə, bu, söz olaraq qalacaq. Mən hesab edirəm ki, məzun olub gəlmiş kadrlar, elm sahəsində çalışan alimlər bizim ali məktəblərin gənclərindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Bunun bir əhəmiyyətli tərəfi də o ola bilər ki, ölkədə universitetləri bitirib elmlə məşğul olmaq istəyən şəxslər, xaricdə həmin istiqamətdə təhsil alan gənclərimizlə ünsiyyətdə ola bilərlər, bu da gələcəkdə tədqiqatların inkişafında öz sözünü deyə bilər".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# ABŞ-dan Assanca 17 yeni ittiham

## Wikileaks twitter hesabından verdiyi açıqlamada bu ittihamları "çılğınlıq" adlandırıb

**Amerika Ədalət Nazirliyi İngiltərədə həbsdə olan Wikileaks qurucusu Culian Assanca 17 yeni ittiham irəli sürüb. "Yeni Müsavat" BBC Türkcəyə istinadən xəbər verir ki, bu ittihamlar arasında gizli qaynaqların adlarını əldə etmək və yaymaq da yer alır.**

Assanca keçən ay da keçmiş məxfi xidmət analitiki Çelsi Manninqlə birlikdə Müdafiə Nazirliyinin şəbəkəsinə girmək üçün plan qurmaq ittihamı verilmişdi. Assanc İngiltərədə zamin şərtlərini pozmağa görə həbs olunub.

47 yaşlı Avstraliya vətəndaşı keçən ay Ekvator səfirliyindən çıxarılaraq türməyə göndərilmişdi. 2012-ci ildə İsveçdə ona qarşı yönəldilən cinsi istismar ittihamlarına görə Ekvator səfirliyinə sığınan Assanc isə ittihamları rədd edir. Yeni ittihamlar arasında Orta Şərq və Çindəki gizli qaynaqları təhlükəyə atmaq da yer alır.

Wikileaks isə twitter hesabından verdiyi açıqlamada bu ittihamları "çılğınlıq" adlandırıb.

Assanca bu sənədləri verən Çelsi Manning 2013-cü ildə günahkar bilinərək 35 il cəza alıb, keçmiş Amerika prezidenti tərəfindən cəzasının azaldılmasından sonra azad edilmişdi. Manning, Wikileaksi araşdıran münsiflər heyəti üzvünə ifadə verməyi rədd etdiyi üçün təkrar həbs edilmişdi.

Wikileaks sızıntısı Amerika tarixindəki ən böyük sızıntılardan biri olmuşdu. Haqqındakı cinsi istismar ittihamlarını yenidən gündəmə gətirən İsveç Assancın onlara təhvil verilməsini tələb edir.

"Yeni Müsavat" xatırladır ki, 2014-cü ilin noyabrında C.Assancın qiyabi şəkildə apelyasiya məhkəməsi baş tutmuşdu. Assanc Amerika hökumətinə məxsus məxfi sənədləri ifşa etməkdə və İsveçdə cinsi zorakılıq törətməkdə ittiham olunur. Assancın vəkili onun həbsinə dair qərarın ləğv edilməsi üçün apelyasiya məhkəməsinə müraciət etmişdi.



İsveçdə keçirilən məhkəmə Assanc üçün uğursuz nəticə vermiş, hakimlər həbs qərarını ləğv etməmişdilər. Assanc 2012-ci ilin iyun ayından etibarən Böyük Britaniyanın paytaxtı Londonda Ekvadorun bu ölkədəki səfirliyində siyasi sığınacaq əldə etmişdi. O, 2006-cı ildə Amerika hərbi qüvvələrinin İraqda keçirdiyi qanunsuz əməliyyatları ifşa etmiş, helikopterlə keçirilən əməliyyatlardan biri zamanı 18 mülki vətəndaşın güllələnərək öldürüldüyünü nümayiş etdirmişdi. Culian Assanc ona məxsus gizli teletaypları açıqladığı üçün Amerika Birləşmiş Ştatlarının qəzəbinə gəlib. Məlumatın mediaya sızması Amerika hökumətinin imicinə ağır zərbələrdən biri hesab edilir.

Assanc və dostları bir çox saytları sıradan çıxarıblar. Bu saytlar içərisində Amerika Müdafiə Nazirliyinin saytının da olduğu bildirilir. Assancın fəaliyyəti bir müddət vətəni Avstraliyada izlənilib. Hakim qarşısına çıxarılsa da, simvolik təminatla xilas ola bilib. Bu hadisədən sonra hakerlikdən əl çəkən Assanc özünə jurnalistika sahəsində karyera qurmaq qərarına gəlib. 2006-cı ildə Wikileaks adlı saytı yaradan Assanc gizli məlumat və sənədləri dərc edir. Keniyaya dair yaydığı məlumatlara görə 2009-cu ildə Beynəlxalq Əfv Təşkilatından mükafat alan avstraliyalı jurnalist keçən ilin aprel ayında iraqlı vətəndaşların və "Reuters" agentliyinin fotoqrafının ABŞ əsgərləri tərəfindən öldürülməsinə dair görüntülərlə İraqda gərginlik yaradıb. 5 redaktoru və 800 könüllüsü olan Wikileaks-ın rəhbəri Assanc bütün bunları gizli şəkildə dərc etdirmək məcburiyyətindədir. O, öz fəaliyyətini davam etdirmək üçün Şərqi Afrikada Keniya və Tanzaniyaya, bəzən isə İslandiyaya gedib.

O, Türkiyənin "Hürriyet" qəzetinə verdiyi məlumatda Wikileaks həqiqətlərindən danışıb.

Assanc "Hürriyet" qəzetinə verdiyi müsahibədə söyləyib ki, "Dərc etdiyim hər xəbər həqiqətə söykənir. Qəzetlərin etməli olduğunu Wikileaks edir. Buna görə də dünyanın dörd bir yanından inanılmayacaq dəstəklər gəlir. Çox gözəl insanlar mənə dəstək verir. Buna görə də ürəyim rahatdır".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 113 (7283) 25 may 2019

# 10 dəqiqəyə 15 pizza yedi

Minskdə pizza yemək üzrə çempionat keçirilib. Tədbirdə 10 nəfər iştirak edib. İştirakçılar yarışmadan öncə bu qədər pizzanın sağlamlığlarına risk yaradacağından xəbərdar olmaları ilə bağlı sənədə imza atıblar. Yarışmaçılar gözləri qapalı şəkildə daha çox pizza yeməklə yanaşı, suallara da cavab verməli idilər. Həmin suallar iştirakçıların yediyi pizzanın növü, onun tərkibindəki təamlarla bağlı idi. “Ən yaxşı pizza yeyən” ünvanına layiq görülən şəxs Dmitriy Yuşkeviç olub. Bu şəxs 10 dəqiqə ərzində 15 pizza yeyə bilib. Amma “Pizza professoru” nominasiyasının qalibi Nadejda Sneqir olub. O, yediyi pizzaların növünü, tərkibindəki elementləri dəqiqliklə dediyinə görə bu ünvana sahib olub.



## 4.09 kilometrlik şərf toxudu



Hindistanın “Mother of India Crochet Queens” adlı həvəskar şərf toxuyanlar təşkilatı uzunluğu 4,09 kilometr olan şərf toxuyaraq, onun “Ginnesin Rekordlar Kitabı”na düşməsinə nail olublar. 700-dən artıq qadın bu nəhəng şərfin üstündə fevral ayından bəri çalışırlar. Bu prosesdə Hindistandan olan toxucularla yanaşı, Dubaydan, Honq-Konqdan, Sinqapurdan və Polşadan olanlar da çalışıblar.

“Ginnesin Rekordlar Kitabı”nın təmsilçisi Rişi Nata deyib ki, bu, uzun şərflə bağlı ilk belə rekorddur. Hətta məlum olub ki, bunun rekord kimi təsdiqlənməsi üçün uzunluğu 1 kilometr olan şərf toxumaq da kifayət imiş. Bu rekordun rəsmi məqsədi dünya uğrunda mübarizə olub. Klub üzvləri öz hazırladıqları məhsulları Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Yaponiya və Çin dövlətlərinin rəhbərlərinə, eləcə də BMT rəhbərlərinə göndərməyi planlaşdırırlar.

2016-cı ildə isə “Mother of India Crochet Queens” təşkilatı üzvləri dünyanın ən böyük odeyalını hazırlamışdılar. Həmin odeyalın sahəsi 1022 kvadrat metr idi və dünyanın ən böyük odeyalı kimi tanınmışdı.

# 1200 metr hündürlükdən aşdı

42 yaşındakı Riçard Henriksen ötən günlər ərzində həyata keçirdiyi bir gimnastika şousu zamanı az qala həyatını itirmişdi. Norveçin NRT televiziyasında yayımlanan ‘Normal Dəlilik’ adlı proqram üçün özəl bir şou hazırlamaq istəyən Henriksen ağla gələ biləcək ən təhlükəli məkanlardan birini seçib: Norveçin şərqindəki Strandkolvet dağı. Dağın kənarına özəl bir gimnastika platforması yerləşdirən Riçard Henriksen bir müddət sonra platformanın üstünə çıxıb şouya başlayıb. İlk dəqiqələrdə hər şey qaydasında kimi görünsə də, az keçmədən dağın kənarına sabitlənən dəmir platforma aşıb və Henriksen 1200 metr yüksəklikdən aşağı uçub. Henriksenin düşüşü və televiziya heyətinin yaşadığı panika kameralarda öz əksini tapıb. Möcüzəvi şəkildə qayalıqlara dəyməyən Henriksen yerə düşməsinə çox az qalmış belindəki paraşütü açaraq sağ qalmağı bacarıb. 5 uşaq atası olan Riçard deyib ki, ölümlə həyat arasında qaldığı dəqiqələrdə ən çox uşaqlarını atasız qoyacağına görə peşman olub.





## Qızın 14 barmağı var idi, əməliyyat etdilər

Çində həkimlər 14 barmağı olan qızı əməliyyat ediblər. Bu barədə “Daily Mail” nəşri xəbər verib. 3 yaşlı pasient kasıb ailədə dünyaya gəlib. Qızın mənsub olduğu nəsildə belə anomaliyalar 5 nəsildir ki, davam edib. Amma uşağın pulsuz, ya pullu əməliyyat edilməsi aydınlaşdırılmayıb.

Həkimlər qızın valideynlərinə bildiriblər ki, uşağın barmaqları daha yaxşı görünəcək və o, barmaqlarını hərəkət etdirəcək. “Qızın hər əlində iki barmaq artıq idi. Bu hala tez-tez rast gəlmək mümkün deyil. Bizim işimizi çətinləşdirən o idi ki, hansı barmağı kənarlaşdırmalı olduğumuzu bilmirdik”, - bunu da cərrah Çjan Çze bildirib. Əməliyyat uğurla yekunlaşıb. Həkimlər təkcə əlavə barmaqları kənarlaşdırmayıblar, eyni zamanda böyük barmaqları da korreksiya ediblər və onların ölçülərini düzəldiblər. Prosedurun üstündən bir ay keçəndən sonra qız özünü yaxşı hiss edir. Polidaktiliya - irsi anomaliyalardan biridir.




QOÇ - İxtiyarınızda olan bu şıltaq təqvim sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

BUĞA - Hər bir məsələdə qanunauyğun addım atın. Saxta iş görmək, yalan vəd vermək, məsuliyyətsizlik sizi gözdən sala bilər. Elə edin ki, etibarlı müttəfiq imiciniz öz qüvvəsində qala bilsin.

ƏKİZLƏR - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamlara fikir verməyin. Gələn ay üçün görəcəyiniz işləri indidən planlaşdırın. Uzaq səfərə çıxmağı isə təxirə salın.

XƏRÇƏNG - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

ŞİR - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

QIZ - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

TƏRƏZİ - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

ƏQRƏB - Axşam saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməlisiniz.

OXATAN - Ümumi durumunuz qənaətbəxş olsa da, mənəvi problemlərə dözümsüzlüyünüz işləri korlaya bilər. İndi sizə enerji itirmək yox, güc toplamaq lazımdır. Axşam bir neçə sürprizə hazır olun.

OĞLAQ - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

SUTÖKƏN - Fəaliyyət zəminində uğurlarınız xeyli artacaq. Bu istiqamətdə sizə etibar etdiyiniz bəzi insanlar da kömək edə bilər. Amma nəzərə almalısınız ki, mənfi enerjili Ay səhər saatlarından qədər bürcünüzdədir.

BALIQLAR - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sevgilisini göyə qaldırmaq istədi, əlini və biləyini sındırdı



20 mayda Çində bir cütlük qeyri-rəsmi sevgililər gününü qeyd ediblər. 20 yaşlı oğlan həvələnərək 65 kiloluq sevgilisini qaldırmağa cəhd edib. Bu zaman yüksək səslə bir şaqqıltı eşidilib və oğlan sağ əlində kəskin ağrı hiss edib.

Həyəcanlanan cütlük xəstəxanaya gedib və həkimlər orada onlara bildiriblər ki, gənc oğlanın əli sınıb, sümükləri zədələnib və ona əməliyyat lazımdır. Həkim bildirib ki, bu hadisə oğlanın zəif fiziki hazırlığına görə baş verib. 2018-ci ildə xəbər verildi ki, Britaniyanın Meydenhed şəhər sakini Kler Basbi sevişmə zamanı yataqdan yerə yıxılıb və beli qırılıb. O, mebel kampaniyasını keyfiyyətsiz mal istehsalında ittiham edib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.070